Günəş Şərqdən doğur!

❒ № 35 (5316), 2021-ci il

Qiymıəti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 24 fevral 2021-ci il (çərşənbə)




## 176 nəfər sağalıb, 2 nəfər vəfat edib

Azərbaycanda son sutkada 223 nəfər koronavirusa yoluxub

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 223 yeni yoluxma faktı qeydə alınıb, 176 nəfər müalicə olunaraq sağalıb.

(Səh.4)

## Heç ağlamadı...

Vəsiyyətini edib bu dünyaya “əlvida” dedi





Fevral ayının 22-si Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Dillər əzbəri mahnıların ifaçısı, Xalq artisti Yalçın Rzazadə vəfat edib.

(Səh.14)

Günün içindən...



## Nazirlər saziş imzalayıblar

Türkiyə, Azərbaycan və Türkmənistan XİN başçılarının üçtərəfli görüşü keçirilib

**Ankarada Türkiyə, Azərbaycan və Türkmənistan xarici işlər nazirlərinin beşinci üçtərəfli görüşü keçirilib.**

Üçtərəfli görüş zamanı dövlətlər arasında strateji tərəfdaşlıq, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərin mövcud inkişafından məmnunluq ifadə olunub.

(səh.3)

## Əngəllər aradan qalxmalıdır



Parlament bu dəfə qazilərin problemlərinə diqqət çəkdi

(səh.3)

# Paşinyan Sarkisyana sual və cavab verdi





## Ermənistan Azərbaycana qarşı "İsgəndər" raketindən istifadə edib, lakin raket partlamayıb

**Ermənistan Azərbaycanla müharibə zamanı ”İsgəndər” raketindən istifadə edib, lakin raket partlamayıb.**

Bunu Ermənistanın baş naziri Nikol Paşinyan erməni KİV-lərinə müsahibəsində deyib.

(səh.4)

## Bakıda bir evdən 5 nəferin meyiti çıxdı

İlkin ehtimala görə hadisə dəm qazından zəhərlənmə səbəbindən baş verib

(səh.6)




## ✓ Bölgənin inkişafı üçün tarixi fürsət var

Mövlud Çavuşoğlu: “Ermənistanın da sülh yolunu seçməsinə ümid edirik”

(səh.2)

## ✓ “Ermənilərlə müharibəni siyasi müstəvidə davam etdirməliyik"

Tofiq Zülfüqarov: “Bunun üçün taktika və strategiyamız müəyyənləşməlidir”

(səh.5)

## ✓ Ermənistan rəsmisi etiraf edib

“Hələ də 1 600 nəfər erməni hərbçisi itkindir”

(səh.3)

## ✓ Akif Nağı yeni iddia irəli sürdü

Minalanmış ərazilərin xəritəsi rus sülhməramlılarında var

(səh.7)



## Qarabağın ETİBARI...

Cəsarəti, dəmir iradəsi onu Qubadlıya qədər apardı və sonunda şəhid oldu

(səh.9)



## “Tovuz hadisələrindən sonra könüllü kimi qeydiyyatdan keçdim”

Qazi Ağacan Məmmədli: “Özgə torpağına göz dikənin gözünü ovurlar”

(səh.9)

## İlham Əliyev Gürcüstanın yeni baş nazirini təbrik edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri kimi fəaliyyətə başlaması münasibətilə İrakli Qaribaşviliyə təbrik məktubu göndərib.**

"Report" xəbər verir ki, təbrik məktubunda deyilir: "Azərbaycan ilə Gürcüstanı dərin tarixi kökləri olan ənənəvi dostluq və mehriban qonşuluq münasibətləri birləşdirir. İnanıram ki, sıx tellər ilə biri-birinə bağlı olan xalqlarımızın iradəsinə uyğun olaraq ölkələrimiz arasındakı səmərəli əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri bundan sonra da dinamik şəkildə inkişaf edəcək və genişlənəcəkdir".

Dövlətimizin başçısı Gürcüstanın Baş nazirinə möhkəm cansağlığı, xoşbəxtlik, dost Gürcüstan xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətində uğurlar diləyib.

## Mehriban Əliyeva Yalçın Rzazadənin ailəsinə başsağlığı verib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Xalq artisti Yalçın Rzazadənin ailəsinə başsağlığı verib:**

*Başsağlığında deyilir:*

"Azərbaycan Respublikasının Xalq artisti Yalçın Rzazadənin vəfatı xəbərini kədər hissi ilə qarşıladım. Müasir musiqi sənətimizdə öz dəst-xətti ilə seçilən Yalçın Rzazadə ifaçılıq məharəti və səhnə mədəniyyəti ilə musiqisevərlərin dərin hörmət və məhəbbətini qazanmışdır. Çoxillik təcrübə və biliyini, estrada sənətinin bütün sirr və incəliklərini həvəslə gənclərə öyrədən sənətkarın yaradıcılıq yolu gənc ifaçılar nəsli üçün əsl sənət məktəbidir. Onun "Dədə Qorqud", "Gün keçdi", "Qaynana", "Baladadaşın ilk məhəbbəti" kimi filmlərdə səsləndirdiyi mahnılar xalqımızın yaddaşından heç vaxt silinməyəcəkdir.

Bu ağır anlarda dərdinizi bölüşür, əvəzsiz itki ilə əlaqədar ailənizin üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm".

# "İndi vəziyyət dəyişib"

"Dağıntıların miqyasını təsəvvürümüzə belə gətirə bilməzdik". Bu sözləri Prezident İlham Əliyev fevralın 23-də Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldini videoformatda qəbul edərkən deyib. Dövlət başçısı bildirib ki, regionumuzun uzun illər ərzində gözlədiyi sülh bərqərar olub və bu sülh uzunmüddətli olmalıdır:



## Prezident İlham Əliyev: "Biz region üçün gələcək qurmağa hazır olduğumuzu nümayiş etdiririk"

"Əminəm ki, Mərkəzin fəaliyyətində siz, həmçinin bu imkanlara, müharibədən sonrakı inkişaf imkanlarına, münaqişədən sonrakı vəziyyətə diqqəti cəmləyəcəksiniz". Ölkə rəhbəri qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsi sona çatıb, tarixin bir hissəsinə çevrilib. İndi biz diqqəti qarşımızdakı məsələlərə cəmləşdirməliyik: "İlk növbədə, əlbəttə ki, ərazilərin yenidən qurulmasına, bərpasına. Hər şey məhv olub. Biz dağıntıların miqyasını təsəvvürümüzə belə gətirə bilməzdik. Ağdamda, Füzulidə, azad edilmiş digər ərazilərdə, kəndlərdə, şəhərlərdə bir bina belə qalmayıb. Hər şey, tarixi abidələr dağıdılıb. Yenidənqurma işləri aparmaq üçün çoxlu tədbirlər görülməlidir. Əlbəttə, biz bu işə sadiqik, bunu etmək üçün bizim güclü iradəmiz, imkanlarımız var".

**"Bizim əraziləri işğal edənlər hər şeyi məhv ediblər"**

**Prezident bildirib ki, heç vaxt olmadığı kimi beynəlxalq birliyin həqiqəti bilməsini istəyirik:** "Çünki indi xarici diplomatlar, beynəlxalq medianın nümayəndələri işğaldan azad olunmuş əraziləri ziyarət edəndə hesab edirəm ki, onlar işğal nəticəsində bizim tarixi abidələrimizin, mədəni abidələrimizin nə vəziyyətə salındığını həqiqətən görürlər. Bizim əraziləri işğal edənlər hər şeyi məhv ediblər. Ümid edirəm ki, pandemiyadan sonra Mərkəzin növbəti tədbirində, həmçinin Mərkəzin üzvlərinin də işğaldan azad edilmiş bir sıra əraziləri ziyarət etmək və ola bilsin, orada müəyyən tədbiri təşkil etmək fürsəti olacaq. Lakin bu, əlbəttə, bizim gələcək əməkdaşlığımızın və müzakirələrimizin bir hissəsidir".

**Dövlət başçısı bəyan edib ki, Azərbaycan region üçün gələcək qurmağa hazır olduğunu nümayiş etdirir:** "İndi vəziyyət dəyişib. Azərbaycan beynəlxalq hüququ bərpa edib, faktiki olaraq regionda və dünyada yeni reallıqlar yaradıb. Bölgədə uzunmüddətli sülhün və sabitliyin bərqərar olması imkanından istifadə etmək üçün indi çox şey bu reallıqların region ölkələri, böyük dövlətlər tərəfindən düzgün qiymətləndirilməsindən asılı olacaq. Zənnimcə, bu gün Azərbaycan həqiqətən də düşmənçilik, nifrət, qarşıdurma səhifəsini bağlamaq və region üçün gələcək qurmağa hazır olduğunu nümayiş etdirir. Əslində, biz artıq buna başlamışıq. Yenidənqurma işlərinə, bütün region ölkələri üçün və nəticədə regionda sabitlik və proqnozlaşdırılma üçün faydalı olacaq layihələri həyata keçirməyə başlamışıq. Ona görə də düşünürəm ki, hamımızın yeni reallıqları qiymətləndirməyə və əməkdaşlığın müsbət imkanlarına və sülh şəraitində birgəyaşayışa diqqəti cəmləşdirmək üçün hökumətlər və beynəlxalq təşkilatlar olaraq addımlarımızı planlaşdırmağa ehtiyac var".

**"Müharibədən sonra çox konstruktiv yanaşma nümayiş etdiririk"**

**Ölkə rəhbəri bəyan edib ki, Azərbaycan öz öhdəliklərinə sadiqdir:** "Biz müharibə zamanı beynəlxalq norma və qaydalara əməl etməklə çox ləyaqətli, doğru şəkildə davrandıq. Zənnimcə, müharibədən sonra çox konstruktiv yanaşma nümayiş etdiririk. Düşünürəm ki, bu reallıqlar uzunmüddətli olacaq".

**İsmayıl Qocayev**



# Bölgənin inkişafı üçün tarixi fürsət var

## Mövlud Çavuşoğlu: "Ermənistanın da sülh yolunu seçməsinə ümid edirik"

## "Türkiyə Azərbaycanla koordinasiyalı şəkildə Ermənistanın hər bir müsbət addımına cavab verəcək"

**"Türkiyə Azərbaycanla koordinasiyalı şəkildə Ermənistanın hər müsbət addımına cavab verəcək". Bunu Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu türkmənistanlı həmkarı Rəşid Meredovla Ankarada birgə mətbuat konfransında deyib. Nazir bildirib ki, bölgədə davamlı sülh üçün, bölgənin inkişafı üçün tarixi fürsət var:**

"Ermənistanın da sülh yolunu seçməsinə ümid edirik. Türkiyə Azərbaycanla koordinasiyalı şəkildə Ermənistanın hər bir müsbət addımına cavab verəcək".

**"Gürcüstanı "3+3" platformasında iştiraka razı salmağa çalışırıq"**

**Mövlud Çavuşoğlu bildirib ki, Gürcüstan "3+3" platformasında iştirak edəcəyinə ümidlər var:** "Bundan hər kəs qazanacaq. Gürcüstanda hökumət dəyişikliyi baş verdiyi üçün Bakıda keçirilməsi planlaşdırılan Azərbaycan-Türkiyə-Gürcüstan xarici işlər nazirlərinin 9-cu üçtərəfli görüşü təxirə salındı. Amma yaxın günlərdə bu görüş keçiriləcək. Ümid edirik, Gürcüstan da regional əməkdaşlıqla iştirak edəcək". Türkiyəli nazir qeyd edib ki, 30 illik işğal zamanı Azərbaycan torpaqlarında dağıntılar törədilib: "Qarabağda, işğaldan azad edilən 7 rayonda tarixi, dini, mədəni abidələrin bərpası üçün Prezident İlham Əliyevin liderliyində Azərbaycan hökuməti əhatəli işlər aparmaqdadır. Türk dünyası, Türk Şurası, Türkiyə olaraq bölgənin yenidən bərpası üçün əlimizdən gələn dəstəyi verəcəyik".

**"Dostluq" yatağı ilə bağlı müqavilənin imzalanmasına görə sevincliyik"**

**Çavuşoğlu bildirib ki, Ankara hökuməti Azərbaycan və Türkmənistan arasında "Dostluq" yatağı ilə bağlı müqavilənin imzalanmasına görə sevinclidir:** "Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanmasına görə Türkiyə olaraq çox sevincliyik". Nazir əlavə edib ki, ölkəsi türkmən neftinin və qazının Türkiyəyə, oradan da Avropaya nəqlində maraqlıdır və bununla bağlı öhdəsinə düşən vəzifələri icra etməyə hazırdır.

**İsmayıl**



# Əngəllər aradan qalxmalıdır

## Parlament bu dəfə qazilərin problemlərinə diqqət çəkdi

Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib. İclas zamanı gündəliyə daxil olan 22 məsələnin müzakirələri aparılıb və qanun layihələri üçüncü oxunuşda qəbul olunub. Çıxış edən deputatlar cəmiyyətdəki mövcud problemləri və seçicilərin şikayətlərini də gündəmə gətiriblər. Əsasən, şəhid ailələri və qazilərimizlə bağlı neqativ məqamlar diqqətə çatdırılıb, təkliflər verilib.

**"Qazilərə sənədlərin verilməsi mexanizmi asanlaşdırılmalıdır"**

**Deputat Nigar Arpadarai deyib ki, qazilər üçün lazım olan sənədlərin alınması mexanizmini asanlaşdırmaq lazımdır.** Millət vəkilinin sözlərinə görə, Vətən uğrunda savaşda iştirak etmiş və yaralanmış, əlil olmuş qəhrəmanlarımız dövlətin yüksək qayğısını üzərlərində hiss etməlidir: "Yaralılar, qazilər sənəd almaq üçün dəfələrlə uzaq məsafəyə gedib-gəlməli deyillər. ASAN xidmətə bənzər bir mexanizm qurula bilər. Bizim kifayət qədər könüllülərimiz var. Bu sənədləri könüllülər vasitəsilə də qazilərin evlərinə göndərmək olar. Yəni hansısa səyyar sistem yaratmaqla qazilərimizin sənəd problemini vaxtında və yerində həll etmək lazımdır".

**"Qarabağda Xocalı soyqırımı ilə bağlı abidə ucaldılsın"**

**Millət vəkili Hicran Hüseynova isə azad edilmiş yerlərdə Xocalı soyqırımı ilə bağlı abidə qoyulmasını təklif edib.** Deputat bildirib ki, Xocalı soyqırımı ilə bağlı həyata keçirilən ən mühüm işlərdən biri Heydər Əliyev Fondunun fəaliyyətidir: "Fondun, konkret olaraq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın misilsiz fəaliyyəti və fədakarlığı nəticəsində bir neçə ölkənin parlamentində, Amerikanın ştatlarında Xocalı qətliamı soyqırım kimi tanınıb. Lakin bununla yanaşı, hər birimiz bu istiqamətdə öz töhfəmizi verməliyik. Parlamentin dostluq qrupları Xocalı soyqırımı ilə bağlı müraciətlər ünvanlayıb. Təklif edirəm ki, gələcəkdə işğaldan azad edilmiş yerlərdə Xocalı soyqırımı ilə bağlı memorial kompleksi ucaldılsın".

**"Dağlıq rayonlar üçün qaz limiti artırılsın"**

**Milli Məclisdə əhaliyə güzəştlə satılan qazın limitinə yenidən baxılması təklif edilib.** Deputat Azər Badamov təklif edib ki, əhaliyə güzəştlə satılan qazın limiti məsələsinə yenidən baxılmalıdır. O bildirib ki, dağlıq rayonlarda iqlim şəraiti ilə bağlı olaraq qazdan daha çox istifadə olunur: "Dağlıq rayonların sakinləri digər regionlardan daha çox yanacaq yandırmağa məcburdur. Ancaq güzəştli qaz limiti məsələsində bütün əhaliyə, regionlara eyni yanaşma tətbiq edilib. Statistikaya görə, ölkə əhalisinin 15 faizi qaz limitini aşır. Əminəm ki, 15 faizin içində dağlıq rayonlarda yaşayan insanların faiz nisbəti 10 faizdən aşağıdır. Tarif Şurasından dağlıq regionlarda yaşayan əhali üçün qaz limitini artırmağı xahiş edirəm".

**"Qazilərimizə bürokratik əngəllər yaradılmasına yol verməк olmaz"**

**Millət vəkili Əli Məsimli müharibədə yaralananların müalicəsində bürokratik əngəllərin aradan qaldırılmasının zəruri olduğunu deyib.** Parlament üzvü bəyan edib ki, qəzalı vəziyyətdə yaşayan şəhid ailələrinin məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı sürətli fəaliyyət həyata keçirilməlidir: "Qazilərin müalicəsində bürokratik əngəllərin, formalizmlərin aradan qaldırılmasına ehtiyac var. Bunun təmin edilməsi istiqamətində addımların atılması vacibdir".

**"Dövlətin altına, cəmiyyətin içinə "minalar" basdırılıb"**

**Milli Məclis üzvü Fazil Mustafa ictimai rəyə əhəmiyyət verilmədiyini, reaksiyaların sıfır olduğunu deyib.** Deputatın fikrincə, qaldırılan bir çox məsələyə cavab verilmir: "Biz məsələ qaldırdıq ki, idman zalları açılmalıdır, toy

> **"Yaralılar, qazilər sənəd almaq üçün dəfələrlə uzaq məsafəyə gedib-gəlməli deyillər. ASAN xidmətə bənzər bir mexanizm qurula bilər"**

məsələsinə baxılmalıdır. Amma qaldırdığımız məsələ elə burada, ən ali tribunada da qaldı. Reaksiya olmadı. Heç olmasa deyin ki, hələlik buna gedə bilmərik. Əks cavab verən də yoxdur. Bu məsələ ciddi şəkildə hamını narahat etməlidir". Millət vəkili spiker Sahibə Qafarovanın yaxşı ənənə yaratdığını deyib: "Xocalı soyqırımı ilə bağlı bizə dəstək verən parlamentlərlə işçi qrupları səviyyəsində əlaqələr yaradılır, onlara minnətdarlıq olunur. Çox müsbət haldır. Hesab edirəm ki, hansı ölkədə Azərbaycana münasibətdə müsbət fikir işlədilirsə, biz buna diqqətlə yanaşmalıyıq". Deputat İslam Universiteti ilə bağlı məsələni də qaldırıb: "2013-cü ilə qədər olan diplomlarla bağlı problem yaranıb. Təhsil Nazirliyi bu məsələdə haqlıdır. Amma bu, tələbənin günahı deyil. Azərbaycanda hüquq ənənəsinə diqqət etməliyik. Ali Məhkəmə bir qərar çıxara və bununla da məsələ həllini tapa bilər. Çünki həmin tələbələr təhsillərini davam etdirə bilmirlər". F.Mustafa daha sonra qeyd edib ki, Qarabağda basdırılan minalardan daha təhlükəlisi cəhalət minasıdır: "Belə minalar bizim dövlətçiliyimizin altında basdırılır və onlar partlayanda əziyyət çəkəcəyik".

**"Futbolumuz, xüsusən uşaq futbolu bərbad gündədir"**

**Deputat Tahir Kərimli də qazilərin problemlərinin tezliklə həll edilməsinin vacib olduğunu söyləyib.** Vurğulayıb ki, dərhal respublikanın bütün yerlərində regional şöbə və komissiyalar yaradılmalı, qazilərə vəsiqələr yerində verilməlidir. Millət vəkili Azərbaycanda futbolla bağlı məsələdə ciddi problemlərin olduğunu deyib: "Xəbər verilir ki, Azərbaycan çempionatı keçirildi, amma regionu təmsil edən komandalar görünmür. Elə bil Bakı çempionatıdır. Əksəriyyətini də SOCAR maliyyələşdirir. Hanı bizim böyük şirkətlərimiz? Niyə futbol klublarına sponsorluq etmirlər? Heç bir komanda yuxarı liqaya çıxmır. Uduzan da, udan da yerində sayır. Yuxarı liqa, aşağı liqa məsələsi bizim futbolda yoxdur. Xahiş edirəm, Azərbaycan futbolunu məhv etməyin, uşaq futbolunu sıradan çıxartmayın. Həyəcan təbili çalmaq lazımdır".

**"Müharibədə yaralananlara və adi insanlara verilən əlillik dərəcəsi eyni olmamalıdır"**

**Deputat Məlahət İbrahimqızı da vurğulayıb ki, artıq 4 aya yaxındır Zəfər qazanmışıq.** Amma əlilliyin təyin olunması məsələlərində problemlər qalmaqdadır: "Vətən müharibəsində könüllü səfərbərliklə əyinlərinə hərbçi paltarı geyinənləri, Ordumuzun əsgərlərini bu qədər gözlətmək düzgün deyil. Müvafiq qurumlar Vətən müharibəsində iştirak edənlərin əlillik dərəcələrini tezliklə təyin etmək üçün işlər görməlidir. 6 ay müddətin lazım olduğu deyilir. Digər tərəfdən Vətən müharibəsində bizə şərəf hissi bəxş edənlərin əlillik dərəcəsi ilə adi insanlara verilən əlillik dərəcəsi eyni olmalı deyil. Türkiyədə, Böyük Britaniyada fərqli tətbiq edilir. Məsələn, Türkiyədə müharibədə iştirak edənlərlə bağlı 6 əlillik dərəcəsi var. Avtoşluq nəticəsində əlil olan bir şəxslə Vətən müharibəsində sağlamlığını itirən qaziyə yanaşma eyni olmamalıdır".

**"Bəzi müəssisələrdə işçilər qul kimi işlədilir"**

**Millət vəkili Razi Nurullayev deyib ki, işçinin əməyinin mühafizəsi və təhlükəsizliyinin təmin olunması vacib məsələdir.** Deputat bildirib ki, işçilər əmək müqaviləsində nəzərdə tutulandan daha çox işlədilir: "Xarici şirkətlərdə bununla bağlı ikiqat ödəniş sistemi tətbiq edilir. Bizim müəssisələrdə işçilər qul kimi işlədilir. Digər tərəfdən, fəhləyə yemək də verilmir. İşçilərin əməyinin mühafizəsinə və təminatına diqqət ayırmaq çox ciddi məsələdir". R.Nurullayev qeyd edib ki, təhqiqat və istintaq tədbirlərində ciddi qanun pozuntuları olur: "Bu mərhələdə insanlar çox incidilir, çox vaxt haqlı haqsız çıxarılır".

**İsmayıl Qocayev**



## Nazirlər saziş imzalayıblar

### Türkiyə, Azərbaycan və Türkmənistan XİN başçılarının üçtərəfli görüşü keçirilib

**Ankarada Türkiyə, Azərbaycan və Türkmənistan xarici işlər nazirlərinin beşinci üçtərəfli görüşü keçirilib.**

APA-nın yerli bürosunun xəbərinə görə, üçtərəfli görüş zamanı dövlətlər arasında strateji tərəfdaşlıq, qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli münasibətlərin mövcud inkişafından məmnunluq ifadə olunub.

Tərəflər dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə qarşılıqlı hörmət bir daha bəyan ediblər.

*Qeyd edək ki, üçtərəfli görüşə dair qəbul edilən bəyanatla əlaqədar nazirlər saziş imzalayıblar.*

## Azərbaycana indiyə qədər 1 milyon 63 min doza vaksin gətirilib



**Fevralın 23-nə olan məlumata əsasən, ölkə üzrə 207 mindən artıq vətəndaş 1-ci doza, 35 mindən artıq vətəndaş isə 2-ci doza peyvəndi qəbul edib.**

Bu barədə APA-nın sorğusuna cavab olaraq Nazirlər Kabinetindən bildirilib.

*Qeyd olunub ki, indiyə qədər ölkəyə 1 milyon 63 min doza vaksin gətirilib.*

## Ermənistan rəsmisi etiraf edib

### "Hələ də 1 600 nəfər erməni hərbçisi itkindir"

**Ermənistan rəsmisindən etiraf: "Hələ də 1 600 nəfər erməni hərbçisi itkindir"**

İkinci Qarabağ müharibəsində itkin düşən erməni hərbçilərlə bağlı yeni statistika açıqlanıb.

"Report"un xəbərinə görə, Əsgərlərin Sığortalanması Fondunun direktoru Varujan Avetikyan bildirib ki, döyüşlərdə iştirak edən 1 600 hərbçidən hələ də bir xəbər yoxdur və onlar itkin düşmüş sayılır.

"Fevralın 10-dan başlayaraq itkin düşmüşlərin ailələri onların yaxın qohumunun itkin düşmüş kimi tanınması üçün məhkəməyə müraciət edə bilərlər. İtkin düşmüşlərin yaxınları məhkəməyə müraciət etmək üçün prokurorluğun Vəkil Palatasının xidmətindən pulsuz yararlana bilərlər", - fond rəhbəri deyib.

# Ermənilər özləri razılıq veriblər

## Rus qoşunları istədiyi vaxt Ermənistanın sərhəddini ayaqlaya bilər

Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasındakı qoşunların bir hissəsinin Azərbaycanla sərhədə - Sünik vilayətinə (Zəngəzur) dislokasiyası nəzərdən keçirilir. Rusiya ilə Ermənistan arasındakı müqaviləyə əsasən, 102-ci bazanın əsas kontingenti Gümrüdə, qərargahı Yerevanda, təyyarələri isə Erabuni hava limanında yerləşir. Ötən gün mətbuata açıqlama verən Ermənistan Müdafiə naziri Vaqarşak Arutyunyan da bu məsələyə toxunub.



Nazir bildirib ki, Yerevan və Moskva Ermənistanın şərqində 102-ci Rusiya hərbi bazasının müəyyən bir hərbi birləşməsinin yenidən yerləşdirilməsi ehtimalı üzərində işləyir. Onun sözlərinə görə, Ermənistandakı rus sərhədçilərinə əlavə vəzifələr həvalə olunur: "Rusiya sərhədçilərinə Ermənistan-Azərbaycan sərhədinin təhlükəsizliyini və qorunmasını təmin etmək üçün əlavə funksiyalar həvalə edilib. Şübhə etmirəm ki, dövlətlərimizin sərhəd xidmətləri arasında sıx və təsirli qarşılıqlı əlaqə mövcuddur. Ermənistandakı rus sərhədçilərinə verilən bütün tapşırıqların ən yüksək səviyyədə yerinə yetiriləcəyinə əminəm". Arutyunyan bəyan edib ki, Gümrüdə yerləşən Rusiya bazasının genişlənməsi və gücləndirilməsi məsələsi hər zaman Ermənistanın marağında olub. Nazir qeyd edib ki, Gümrü bazası Ermənistan və Rusiya Silahlı Qüvvələrinin Birgə Silahlı Qruplaşmasının tərkibinə daxildir: "Rusiya Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən regionda mövcud hərbi-siyasi reallıqlar nəzərə alınıb və bazanın güclənməsi, silahlandırılması istiqamətində düzgün addımlar atılıb. Əminəm ki, bu məsələ uzunmüddətli xarakter daşıyır". Ekspertlərin fikrincə, bununla ruslar Türkiyəyə, daha doğrusu, NATO-ya qarşı ikinci cəbhədə mövqelənməyi planlaşdırır. Onların fikrincə, Ermənistanda rus ordusunun saxlanılmasının əsas hədəfi NATO, yeni Türkiyə ilə sərhəd xətti qurmaq olub. Qarabağ müharibəsi ilə Türkiyənin Azərbaycana gəlişi ruslara görə NATO-nun da gəlişi deməkdir. 102-ci bazanın bir hissəsini Azərbaycanla sərhədə yerləşdirmək planı da uzaq perspektivli hədəf kimi bölgədə Hərbi Alyansa qarşı ikinci sərhəd xəttini yaratmaqdır. Bu, rusların bölgədə çətin vəziyyətə düşdüyünün başqa bir nümunəsidir.

**"Kreml Gümrüdəki hərbi bazasını da, Ermənistan-Azərbaycan sərhəddini qoruyan rus əsgərlərinin tərkibini də azaldıb-artırmaqda sərbəstdir"**

**AMİP sədri Arzuxan Əlizadə "Şərq"ə bildirib ki, Ermənistanın 102-ci hərbi bazanı genişləndirmək niyyəti ilk növbədə bu ölkənin qondarma dövlət olduğunun, müstəqilliyini Rusiyaya həvalə etdiyinin göstəricisidir.** Partiya rəhbərinin sözlərinə görə, əgər bir ölkənin sərhədlərini rəsmi şəkildə rus sərhədçiləri mühafizə edirsə, Yerevanın nəyəsə iddia etmək, suverenlikdən danışmaq haqqı yoxdur: "Əslində Gümrüdəki hərbi bazanın kontingentinin artırılması yeni məsələ deyil. Həm də bu o qədər əhəmiyyət kəsb etmir. Yerevanla Moskva arasındakı hərbi sazişə görə, Rusiya istədiyi vaxt öz qoşunları ilə Ermənistan sərhəddini ayaqlaya bilər. Buna ermənilər özləri razılıq veriblər. Rusiya Gümrüdəki hərbi bazasını da, Ermənistan-Azərbaycan sərhəddini qoruyan rus əsgərlərinin tərkibini də azaldıb-artırmaqda sərbəstdir. Düzdür, Ermənistan müxalifəti hərbi bazanın mövcudluğunu və tərkibin artırılmasını özləri üçün təhlükə sayır, bu addımı Ermənistanın "suverenliyinə" müdaxilə kimi görürlər. Amma bu məsələdə yekun qərarı Rusiya verir. Yerevan isə heç bir səlahiyyətə malik deyil".

A.Əlizadə vurğulayıb ki, Ermənistanın şərq bölgələri tarixi Azərbaycan torpaqlarıdır. Biz həmin ərazilərə də iddialıyıq: "Zəngəzurun Azərbaycana məxsus olduğunu ermənilər özləri də etiraf edirlər. Vaxtı ilə Naxçıvanı bizdən ayırmaq üçün Zəngəzuru məqsədyönlü şəkildə qondarma dövlət olan Ermənistana veriblər. Bilirsiz ki, artıq həmin bölgədə kommunikasiyaların bərpası işinə ciddi hazırlıq gedir. Tezliklə nəqliyyat dəhlizləri fəaliyyətə başlayacaq. Qardaş Türkiyə bu prosesin içində, daha dəqiq desək, mərkəzindədir. Azərbaycan da 1990-cı illərin zəif ölkəsi deyil. Güclü iqtisadiyyata, sarsılmaz hərbi qüdrətə malik bir dövlətik və nəyə qadir olduğumuzu 44 gündə düşmənə və onun arxasında duranlara göstərmişik".

*Politoloqun qənaətincə, Ermənistan sərhədlərini rus qoşunlarının qoruması və hərbi bazanın genişlənməsi Azərbaycan üçün yeni və əlavə təhlükə sayılmır:* "Rusiya ilə bağlı narahatlığımız, indiyə qədər mövcud olan risk hansı miqyasda idisə, indi də eyni ölçüdədir. Azərbaycanın tarixi torpaqlarını tam mənası ilə düşməndən azad etmədiyimiz müddətcə, narahatlığımız davam edəcək. Kremlin və təxribatçı Ermənistanın niyyəti bizə bəllidir. Düşmənimizi də, dostlarımızı da yaxşı tanıyırıq. Əslində hərbi kontingentin sayını artırmağı düşünən Rusiya ermənilərin yox, özünün maraqlarını güdür. Mesaj göndərir ki, "Cənubi Qafqazda əsas söz sahibi Moskvadır və bu mövqeni əldən verməmək üçün hər şeyi etməyə hazırdır". Lakin Azərbaycan-Türkiyə qardaşlığı və ortaq fəaliyyəti bizimlə bağlı istənilən təhlükəni önləyən əsas faktorlardan biridir. Buna rəğmən, istənilən halda hər cür təhlükəyə və təxribata hazırlıqlı olmalıyıq".

**İsmayıl Qocayev**

## Paşinyan Sarkisyana sual və cavab verdi

### Ermənistan Azərbaycana qarşı "İsgəndər" raketindən istifadə edib, lakin raket partlamayıb



**Ermənistan Azərbaycanla müharibə zamanı "İsgəndər" raketindən istifadə edib, lakin raket partlamayıb.**

Trend-in məlumatına görə, bu Ermənistanın baş naziri Nikol Paşinyan erməni KİV-lərinə müsahibəsində deyib.

N.Paşinyan sabiq prezident Serj Sarkisyana cavabında bildirib: ""İsgəndər" raketinin niyə partlamadığı və ya niyə, məsələn, 10 faizinin partladığı barədə sual versin".

Baş nazir həmçinin S.Sarkisyanın "məxməri inqilab"dan sonra silahların alınması proqramında dəyişikliklər edildiyi barədə sözlərini də təkzib edib.

S.Sarkisyanın hakimiyyəti Paşinyana deyil, Karen Karapetyana verdiyinə dair açıqlamasını şərh edən N.Paşinyan bildirib: "Bu rədd edilmiş necə kiməsə hakimiyyəti verib və ya verməyə bilərdi?".

## 176 nəfər sağalıb, 2 nəfər vəfat edib

### Azərbaycanda son sutkada 223 nəfər koronavirusa yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 223 yeni yoluxma faktı qeydə alınıb, 176 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 233 424 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 228 012 nəfər müalicə olunaraq sağalıb, 3 204 nəfər vəfat edib, aktiv xəstə sayı 2 208 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 8 043, ötən müddət ərzində isə ümumilikdə 2 563 101 test aparılıb.

# Lavrovun "Böyük Turan" əndişəsi...

"Əksinə, rus şovinizmini məhv edəcək tək gücün - Türklüyün qüvvələr nisbətini dəyişməsidir"

Rusiya XİN başçısı Sergey Lavrov bu günlərdə "RBK" kanalına müsahibəsi zamanı Böyük Turan haqqında da fikir bildirib. Nazir Türkiyənin belə bir hədəfi olduğunu düşünmədiyini dilə gətirib: "SSRİ-nin tərkibində olmuş və indi müstəqil dövlət olan ölkələrin də bu fikri hər hansı şəkildə dəstəklədiyini görmürəm".

Əslində nazirin bu açıqlaması təkcə rəsmi Ankara deyil, eləcə də bütün türk dünyasına mesajdır.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı "Şərq"ə açıqlamasında rusiyalı nazirin sözügedən açıqlamasına toxunub. O, Moskvanı narahat edən səbəblərdən danışıb:** "Turan ideologiya olaraq yeni doğulanda irqçilik adlandırıldı. İç düşmənlərin sayəsində Rus-fars şovinizminə məğlub oldu və SSRİ dönəmində həm utopiya, həm də "Vətən xainlərinin ideologiyası" olaraq qələmə verildi.

**"Rusiya XİN başçısının türklərə təhlükə olaraq baxma səbəbi heç də bizim təhlükəli olduğumuzdan qaynaqlanmır"**



Əsas ideyaları təhrif edilərək, müxtəlif səpkilərdə gözdən salındı. SSRİ-nin çöküşü, Azərbaycanda və digər keçmiş Sovet ölkəsi Türk Respublikalarında milli hərəkatların qələbəsi, Elçibəyin uğurları nəticəsində Turan ideologiyası əvvəlki aktuallığını geri qaytardı.

Son illərdə, Ərdoğan iqtidarının xarici siyasətdə Türk dünyası məsələlərini prioritetə çevirməsi ilə bu yolda əsas gücün - Türkiyə faktorunun səfərbər edilməsini asanlaşdırdı.

Bu gün, dünənədək Rusiya siyasi elitasında ancaq dəli Jirinovskinin "narahatlığı" olaraq bilinən Türk Birliyi, bir müddət əvvəl bir neçə deputatın, ötənlərdə isə artıq Sergey Lavrovun müzakirə etdiyi "təhlükə" olaraq gündəmə gəldi.

Rusiyanın türklərə təhlükə olaraq baxma səbəbi heç də bizim təhlükəli olduğumuzdan qaynaqlanmır. Əksinə, rus şovinizmini məhv edəcək tək gücün - Türklüyün qüvvələr nisbətini dəyişməsidir.

Türk gəncliyi, Türk milləti və türklərlə dostluq şəraitində yaşayan bütün milli azlıqların nicat yolu rus-fars şovinizminin məhvidir. Region sülh, xalqlar barış içində yaşam istəyir.

Tək əngəl isə şovinistlərin ölkələrdə və regionlarda siyasi iqtidar sahibi olmasıdır. Bu reallıq yaxın gələcəkdə dəyişəcək. Biz dəyişəcəyik- Tarixin ədalət tərəzisi, uca Türk milləti!".

**Kənan Novruzov**

# "Ermənilərlə müharibəni siyasi müstəvidə davam etdirməliyik"

## Tofiq Zülfüqarov: "Bunun üçün taktika və strategiyamız müəyyənləşməlidir"



Ermənilər iki gün öncə "Dirçəliş günü" adı ilə Xankəndidə kütləvi tədbir keçirib. Tədbirdə sülhməramlılar da onları müşaiyət edib. Separatçıların "lideri", terrorçu başı, beynəlxalq axtarışda olan Araik Harutyunyan bununla bağlı Feysbuk hesabında təbrik videosu yayımlayıb.

2020-ci il noyabrın 10-da rəsmi olaraq qələbəmizi qazanmışıq. Lakin Qarabağda qarışıq durum hökm sürməkdədir. Ermənistan hər zamankı kimi destruktiv siyasətini davam etdirir. Məsələn, Xankəndidə sözügedən tədbir və rus dilini "dövlət dili" elan edilməsi kimi.

*Bölgədəki son durumlarla əlaqədar "Şərq" sabiq Xarici işlər naziri Tofiq Zülfüqarovla həmsöhbət olub.*

**-Son günlər Qarabağda baş verən prosesləri necə qiymətləndirirsiniz?**

- Xankəndidəki "Dirçəliş günü" yürüşə baxanda gördüm ki, xüsusi hazırlıq gedib. Həm təşkilatçılıq, həm də təqdimat üçün professional çəkilişlər var idi. Lakin hiss olunurdu ki, erməni xalqı hərbi məğlubiyyətdən sonra hələ də iqtisadi və demoqrafik böhran yaşayır. Bunun qarşısını almaq və Azərbaycana müqavimət göstərmək üçün müəyyən cəhdlər göstərirlər. Həmin cəhdlərin göstərənlərdən biri ermənilər, digərləri isə Rusiyanın ermənipərəst dairələridir. Müharibədən sonra erməni əhalisi faktiki olaraq 2 qat azalıb. Ermənistanda Azərbaycana qarşı mübarizə tədbirlərini gücləndirmək üçün süni şəkildə yaradılmış bir mexanizm var. Bu mexanizmlə erməni xalqının diqqətini cəlb etməyə çalışırlar. Ona görə də belə yürüşlər keçirirlər. Perspektivdə belə addımlar yenə atılacaq. Bu baxımdan hazırlıqlı olmalıyıq. Xankəndidəki "Dirçəliş günü" tədbirinin keçirilməsində məqsəd cəmiyyətimizdə yanlış mənzərə yaratmaqdır. Fikrimcə, ölkəmizin müharibədən sonra imkanları daha genişdir. Arqumentlərimiz kifayət qədər çoxdur. Düzdür, bizə qarşı müxtəlif təxribatlar davam edə bilər. Təxribatın əsas ünvanı cəmiyyətimiz, sonra isə beynəlxalq ictimaiyyətdir. Başa düşməliyik ki, yeni şəraitdə ermənilərlə müharibəni siyasi müstəvidə davam etməliyik. Bunun üçün taktika və strategiyamız müəyyənləşməlidir.

**- İşğaldan azad edilən ərazilərə qayıdış planı barədə nə düşünürsüz?**

- Əldə etdiyimiz əsas üstünlük ərazilərimizin işğaldan azad edilməsidir. Bundan başqa insanların həmin ərazilərə qayıdışının təmin edilməsi istiqamətində mühüm işlər aparılır. Gələcək aylarda bu məsələ daha da aktuallaşacaq. Azad olunmuş ərazilərdə Azərbaycanın əhalisi çoxaldıqca ermənilərin pessimist əhval-ruhiyyəsi daha da güclənəcək.

**- Ermənistanın revanş götürməsi, Xankəndidə "ordu" yaratmaq niyyətləri var və bunu zaman-zaman gündəmə gətirirlər...Nəyəsə nail ola bilərlərmi?**

- Düşünmürəm ki, onların əlində hansısa real imkanlar var. Ordunu yenidən yığıb hansısa təhlükə yaradacaqlarına inanmıram. Bu, mümkün olan hal deyil. Təbii ki, populist şüarlar səslənəcək. Lakin başa düşməliyik ki, belə şüarların arxasında real imkanlar olmalıdır. Azərbaycan bu istiqamətdə öz siyasətini davam etdirir. Ölkəmiz müxtəlif silah növlərini əldə edir, daha çox Türkiyə ilə bu sahədə bir neçə yeni saziş bağlanıb. Bu baxımdan bizim üçün iki istiqamət vacibdir: Birincisi, ordumuzun güclənməsi, ikincisi, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının praktiki və yüksək səviyyəyə çatdırılması. Hesab edirəm ki, azad edilən torpaqlarda baş tutacaq tədbirlərdə bu mövzulara aid müzakirələr mütləq olacaq.



### "Laçın dəhlizində yalnız sülhməramlılar yox, Azərbaycan sərhədçiləri də nəzarəti həyata keçirməlidir"

**- Amma hələ də bəzi ərazilərimizdə erməni terrorçuları var...**

- Ermənistan terrorçularının ərazilərimizi tam şəkildə tərk etməsi gündəmdədir. Bunu təmin etmək üçün Laçın dəhlizində yalnız sülhməramlılar yox, Azərbaycan sərhədçiləri də nəzarəti həyata keçirməlidir. Beləliklə, qeyri-qanuni yaradılan silahlı dəstələr ərazilərimizdən tərki-silah edilməlidir. Ona görə də Azərbaycan sülhməramlılarla birgə olaraq nəzarəti ələ keçirməlidirlər.

**- Qondarma rejim Xankəndidə rus dilini "rəsmi dil" elan etdi. Məqsəd nədir?**

- Əsas məqsəd odur ki, ermənilər ruspərəst siyasətlərin büruzə vermək istəyirdilər. Ona görə də belə addım atdılar. Ermənistanın özündə qərbyönümlü şüarlar daha da çoxalacaq. Gələn aylardan Ermənistanın qərbyönümlü siyasətinin həyata keçirilməsində Paşinyanın atdığı addımlar özünü açıq-aydın göstərəcək. Digər tərəfdən Qərb də Ermənistana olan dəstəyini artıracaq. Əlbəttə, ermənilər başa düşürlər ki, Azərbaycan ərazisində yaşayan və müvəqqəti olaraq sülhməramlı himayəsi altında olan əhaliyə hansısa yeni ideologiya lazımdır. Ona görə də ruspərəstlik ideologiyası gündəmə gəldi. Amma hər zamankı kimi bunun nəticələri ermənilərin xeyrinə olmayacaq. Biz qələbə qazanmışıq. Ermənilərin ərazilərimizdə qalma ehtimalı çox azdır. Pandemiya ilə bağlı qadağalar aradan götürüləndən sonra ermənilərin Rusiyaya tərəf axını birmənalı şəkildə güclənəcək. Rusdilli məktəblərin açılması, rus dilinin istifadəsi və Rusiya vətəndaşlığının verilməsi kimi amillər ermənilərə imkan yaradır ki, onlar torpaqları daha effektiv şəkildə tərk etsinlər.

**- Azərbaycan tərəfi nə qədər tələb etsə də, ermənilər azad edilən ərazilərdəki minalı sahələrin xəritəsini verməkdən boyun qaçırırlar. Dövlətimiz bununla bağlı hansı işlər görə bilər?**

- Minanın təmizlənməsi prosesini aktivləşdirməyimiz gündəmdədir. Fikrimcə, bu mövzuya beynəlxalq yanaşma tətbiq edərək təbliğatı gücləndirməliyik. Təklif edirəm ki, mina təmizləmə prosesində əlimizdə olan erməni hərbi mütəxəssislərini bu prosesə cəlb edək. Onlar bilirlər ki, harada və hansı yerlərdə minalar yerləşdirilib. Bununla bağlı təcrübə də mövcuddur. İkinci Dünya müharibəsindən sonra Danimarka almanları mina təmizləmə prosesinə cəlb edib.

**Söhbətləşdi:**
**Yeganə Bayramova**

# Tbilisi çalxalanır

## Gürcüstanda nəzərlər yenidən Saakaşviliyə dikilir

Ermənistanla yanaşı Gürcüstanda da siyasi xaos davam edir. Məlum olduğu kimi Gürcüstanın əsas müxalif partiyası olan "Vahid Milli Hərəkat"ın sədri Nika Meliya həbs edilib. Polis əməkdaşları Meliyanı partiyanın baş ofisində həbs edərkən bibər qazından istifadə ediblər. Müxalif partiya sədrinin həbsinə hazırlıq baş nazirin istefasına səbəb olub. Bu fakt göstərir ki, hakimiyyətdə həbslə bağlı yekdil qərar olmayıb. Çünki həbs qərarının ölkəni qarışdıracağı ehtimalı az deyildi.



*"Müxalifət hesab edir ki, hakimiyyət tərəfindən atılan radikal addımlar ölkəni Qərbin dəstəyindən məhrum edəcək və onu Rusiyanın orbitinə qaytaracaq"*



Onsuz da müxalifət düşərgəsi parlament seçkilərindən sonra hakimiyyəti saxtakarlıqda ittiham edir, mitinqlərə başlayacağını deyirdi. Meliyanın həbsi müxaliflər üçün göydəndüşmə oldu. İndi müxalifət yenidən parlament seçkilərinin keçirilməsini tələb edir. Hökumət isə bunun əleyhinə çıxır. Baş nazir vəzifəsinə irəli sürülən İrakli Qaribaşviili də növbədənkənar parlament seçkisinin keçirilməsinin əleyhinə çıxış edib. Hadisələr fonunda sabiq prezident Mixail Saakaşvilinin də Gürcüstandakı tərəfdarlarına çağırışları artmaqdadır. Necə ki, Ermənistanın müxalifət liderləri Baş nazir Nikol Paşinyanı devirməyə çağırır, oxşar çağırışları Saakaşvili Gürcüstan üçün edir. Gürcüstanın iqtisadi durumu da ağırlaşıb. Nəzərə alaq ki, qonşu ölkənin əsas gəlir mənbələrindən biri turizm idi, ancaq koronavirus hər yerdə olduğu kimi Gürcüstanda da bu sahəni çökdürüb.

**Qonşu ölkədəki qarşıdurmanı "Şərq"ə dəyərləndirən politoloq Azər Rəşidoğlu deyib ki, Gürcüstanda müxalifətə təzyiqlər artıb. Analitikin fikrincə, Nika Meliyanın həbs qərarı hakimiyyətlə dialoq perspektivini azaldır:** "Məsələ ondadır ki, faktiki olaraq Gürcüstanda bütün müxalifət liderlərinə qarşı cinayət işləri qaldırılıb. Həmçinin, müxtəlif səbəblərdən vaxtilə xitam verilən bir çox köhnə işlər yenidən qaldırılıb. Bu isə vəziyyəti daha gərginləşdirir. Gürcüstan müxalifəti belə hesab edir ki, hakimiyyət tərəfindən atılan radikal addımlar ölkəni Qərbin dəstəyindən məhrum edəcək və onu Rusiyanın orbitinə qaytaracaq".

**Ekspertin sözlərinə görə, rəsmi Tiflisə qarşı Qərbin təzyiqləri də arta bilər:** "Maraqlı olan odur ki, daha da gərginləşən proseslər fonunda nəzərlər yenidən sabiq prezident Mixail Saakaşviliyə dikilir. Gürcülər artıq vətəndaş qarşıdurmasından bezliblər və növbəti vətəndaş müharibəsi arzulamırlar. Tərəflər arasında dialoq lazımdır. Böhrandan çıxış yolu təqdim edən Saakaşvili isə yenidən siyasi Olimpə yüksələ bilər".

**İsmayıl Qocayev**

# Xocalıdan hər gün danışılmalıdır



## "Ahıska" qəzetinin baş redaktoru "Şərq"ə maraqlı detalları açıqlayıb

Bir neçə gündən sonra tarixímizin qanlı səhifələrinə həkk olunan Xocalı soyqırımının 29-cu ildönümüdür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan hərbi birləşmələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının iştirakı ilə aylarla mühasirədə saxlanılan Xocalı şəhərinə hücuma keçərək, bir gecənin içində onu yerlə-yeksan ediblər.

Bu qanlı aksiya zamanı dinc əhaliyə amansızlıqla divan tutulmuş, 613 nəfər qətlə yetirilmiş, meyitlər təhqir olunmuş, 1275 nəfər girov götürülüb. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil. Qətlə yetirilənlərin 63 nəfəri uşaq, 106 nəfəri qadın və 70 nəfəri qoca idi. Hərbi təcavüz nəticəsində 8 ailə tamamilə məhv edilib.

Ölkəmizdə Xocalı hadisəsinin unudulmaması və təbliği istiqamətində mühüm işlər görülür. Bu sahədə "Xocalıya ədalət" kampaniyasını xüsusilə vurğulaya bilərik. Lakin erməni vandallıqlarının beynəlxalq tribunada tanıdılması da xüsusi əhəmiyyətə malikdir.

**"Bu sahədə xarici səfirliklərimiz fəaliyyət göstərməlidirlər. Təəssüf ki, Xocalı ilə bağlı tədbir keçirən zaman görürük ki, yalnız azərbaycanlılar var, başqa millət yoxdur"**

Qazaxıstanda nəşr olunan "Ahıska" qəzetinin baş redaktoru Rövşən Məmmədoğlu xalqımıza qarşı törədilən soyqırımla bağlı beynəlxalq aləmdə görülən tədbirlər barədə "Şərq"ə danışıb.

Baş redaktor Qazaxıstanın Almata şəhərində tədbir keçirildiyini söylədi: "Tədbirdə müvafiq videomaterial verildi, bəzi çıxışlar oldu. Təəssüf ki, Xocalı faciəsi siyasi və hüquqi qiymətini almayıb. Düzdür, ordumuzun qələbəsindən sonra ürəyimizə bir az olsa da su səpildi. Amma dünyanın bu hadisələrə kor gözlə baxdığı və qiymət vermədiyi bəllidir. Bu gün Xocalının dünyada tanınmamasının bir günahkarı da qürbətdə yaşayan soydaşlarımızdır. Çünki istənilən səviyyədə təbliğat aparmırıq. Əvvəllər təqvimdə Şuşanın və digər ərazilərimizin işğal tarixi yazılmışdı. Şükürlər olsun ki, həmin tarixlər bayram günü olaraq əvəzləndi. Xocalı hadisəsi haqqında isə yalnız 26 fevral yox, il boyu danışmaq lazım idi. Ona görə də təbliğatımızı yalnız bir gün üzərində qurmalı deyilik".

**R.Məmmədoğlu qeyd edib ki, Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün ciddi işlər görülməlidir:** "Bu sahədə xarici səfirliklərimiz fəaliyyət göstərməlidirlər. Təəssüf ki, Xocalı ilə bağlı tədbir keçirən zaman görürük ki, yalnız azərbaycanlılar var, başqa millət yoxdur. Onsuz da bütün azərbaycanlılar bu hadisələrdən xəbərdardır. Xalqımıza qarşı olan qəddarlığı başqa millətlərə çatdırmalıyıq ki, həqiqətləri görsünlər".

**Yeganə Bayramova**



## 140 gündən sonra şəhid xəbəri gəldi

### 20 yaşlı əsgər Gəncədə dəfn edilib

**Qarabağ müharibəsində qazanılan möhtəşəm qələbədə pay sahibi olanlardan biri də Əmrah Rajapovdur. O, 2000-ci ildə Gəncədə doğulub.**

Sputnik Azərbaycan-ın məlumatına görə, kiçik yaşlarında atasını itirən Əmrah Gəncə şəhərində yerləşən uşaq evlərindən birinə verilib. Orta məktəbdən məzun olduqdan sonra, ona dövlət tərəfindən Masazır məzunlar evindən mənzil hədiyyə olunub. 2019-cu ilin oktyabrında isə hərbi xidmətə yollanıb. 44 günlük Vətən müharibəsində iştirak edib. Oktyabrın 8-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onun nəşi ötən gün müəyyən edildikdən sonra Gəncə şəhərinə gətirilib və Şəhidlər Xiyabanında torpağa tapşırılıb.

*Dəfn mərasimində Gəncə şəhər İcra Hakimiyyətinin rəhbərliyi, hərbçilər və şəhər ictimaiyyəti iştirak edib.*

## Bakıda bir evdən 5 nəfərin meyiti çıxdı

### İlkin ehtimala görə hadisə dəm qazından zəhərlənmə səbəbindən baş verib



**Baş Prokurorluq Bakıda 5 nəfərin ölümü ilə bağlı məlumat yayıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, fevralın 23-də saat 14 radələrində Səbail rayonu ərazisində yerləşən evdə 5 nəfər şəxsin meyitinin aşkar olunması barədə Səbail rayon prokurorluğuna məlumat daxil olub.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilib, o cümlədən digər təxirəsalınmaz hərəkətlər yerinə yetirilib.

Araşdırmalarla müəyyən olunub ki, 2004-cü il təvəllüdlü Atilla Əliyevin, 2003-cü il təvəllüdlü Lətif Əliyevin, 2000-ci il təvəllüdlü İnkişaf Allahverdiyevin, 1972-ci il təvəllüdlü Natiq Səfərovun və 1998-ci il təvəllüdlü Şikar Allahverdiyevin meyitləri Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, 1-ci yaşayış massivinin 1-ci döngə ev 29 ünvanında yerləşən fərdi yaşayış evində aşkar olunub.

İlkin ehtimala görə hadisə dəm qazından zəhərlənmə səbəbindən baş verib.

Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 314.3-cü (səhlənkarlıq, ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə məhkəmə-tibb, məhkəmə-texniki təhlükəsizlik ekspertizaları təyin olunmuş, şahidlər dindirilib və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda cinayətin baş vermə səbəblərinin dəqiqləşdirilməsi və təqsirkar şəxslərin müəyyən edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# İtaliya artıq könlümüzü fəth edir

## "2020-ci ilin yekunlarına əsasən Azərbaycan ticarət dövriyyəsində İtaliya ən böyük paya malik olub"

İtaliya şirkətləri Qarabağda yenidənqurma işlərinə dəvət edilib. Bu şirkətlər Qarabağ regionunda şəhərsalmanın planlaşdırılması, zəngin tarixi-memarlıq irsimizin bərpası və yenidənqurma işlərində iştirak edəcəklər.




Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin konsepsiyasının hazırlanmasında Azərbaycan İtaliyanın dünyaca məşhur aparıcı multimedia şirkəti olan "G GROUP" şirkəti ilə əməkdaşlığa başlayıb. Qeyd edək ki, Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin konsepsiyasının mükəmməl işlənilməsi üçün məkanla yerində tanış olmaq mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə cari ilin 19-21 fevral tarixində "G GROUP" şirkətinin işçi heyətinin - yaradıcı icraçı direktor və bədii rəhbər Fabrizio Conti, strategiya üzrə məsləhətçi Laura Conti, memar, muzey və ekspozisiya dizayneri Nicola Pavan və memar Carlo Pavan Bakıya səfəri təşkil olunub. Görüş zamanı Mədəniyyət naziri Anar Kərimov Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin dövlətimizin və xalqımızın əzmkarlığı nəticəsində qazandığı Şanlı Qələbəni, Vətən müharibəsinin gedişatını müasir təqdimat metodları ilə tamaşaçıya çatdıran məkan olmasının vacibliyini vurğulayıb.

**Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə açıqlamasında vurğulayıb ki, İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Deputat diqqətə çatdırıb ki, 2020-ci ilin yekunlarına əsasən Azərbaycan ticarət dövriyyəsində İtaliya ən böyük paya malik olub:** "Belə ki, cari ticarət dövriyyəmiz 4 milyard 568 milyon dollar olub. Bu da ticarət dövriyyəsində ilk yerdir. Qeyd edim ki, Azərbaycan-İtaliya münasibətləri formalaşdıqdan sonra İtaliya şirkətləri tərəfindən Azərbaycan iqtisadiyyatına 7 milyard dollara yaxın investisiya qoyuluşu həyata keçirilib. Bu da təbii ki, İtaliya şirkətlərinin Azərbaycanda fəal şəkildə iştirak etməsi anlamına gəlir".

*V.Bayramov qeyd edib ki, eyni zamanda Azərbaycan İtaliyanın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır:* "İtaliyanın Cənubi Qafqaz ölkələri ilə olan ticarət dövriyyəsinin 92 faizi Azərbaycanın payına düşür. Bu da ondan xəbər verir ki, Azərbaycan İtaliya üçün regional olaraq strateji müttəfiq ölkədir. Təbii ki, bu müttəfiqlik strateji əhəmiyyət daşıyır. Növbəti mərhələdə iki ölkə arasında iqtisadi əlaqələrin daha da genişlənəcəyi gözlənilir. Belə ki, İtaliya-Azərbaycan arasında enerji əməkdaşlığının artıq növbəti illərdə, xüsusən də 2021-ci ildən başlayaraq yeni mərhələyə qədəm qoyacaq. Artıq Cənubi Qaz Dəhlizi vasitəsilə Azərbaycanın mavi qazı Avropa bazarına çıxarılacaq. Birinci mərhələdə Azərbaycan Avropaya on milyard, ikinci mərhələdə 20 milyard kubmetr mavi qaz nəql edəcək. Bu da təbii ki, İtaliya-Azərbaycan arasındakı ticarət dövriyyəsinin daha da artmasına səbəb olacaq. Eyni zamanda, İtaliya şirkətləri işğaldan azad olunan ərazilərimizin bərpasında, yenidən qurulmasında və iqtisadi aktivliyin formalaşmasında yaxından iştirak edəcəklər. Artıq İtaliya şirkətləri ilə yarımstansiyaların qurulması və enerji təminatı ilə bağlı anlaşma da imzalanıb. Növbəti mərhələdə İtaliya şirkətləri digər sektorlarda da öz sərmayə qoyuluşlarını davam etdirəcəklər. Praktiki olaraq bu ondan xəbər verir ki, biz növbəti illərdə iki ölkə arasındakı münasibətlərin daha da inkişaf etməsini və ticarət dövriyyəsinin artmasını müşahidə edəcəyik".

**Aynurə Pənahqızı**

# Qarabağdakı abidələrimizin erməniləşdirilməsinin “sirri” açılmalıdır

## “Daha çox siyasiləşdirilən bu abidələr muzeyə çevrilməlidir”





**44 günlük Vətən müharibəsində ağır məğlubiyyətə uğrayan məkrli düşmən tarixi saxtakarlıqlarını davam etdirməkdədirlər. Lakin heç kəsə sirr deyil ki, tarixi həqiqətlər tamamilə gizlədilə bilməz. Bir faktı qeyd edək ki, hələ 1918-1919-cu illərdən başlayaraq Qarabağda arxeoloji qazıntılar aparılır.**

Aparılmış arxeoloji ekspedisiya zamanı erməni alim-şərqşünas, arxeoloq İosif Orbeli Qarabağdakı monastır və kilsələri, xüsusilə də Gəncəsər monastırı üzərindəki 1000-dən çox kitabəni tədqiq və təsvir edib. Tədqiqatlarının nəticəsini o, 1919-cu ildə Sankt-Peterburqda kitab formasında nəşr etdirir. ”Gəncəsər və Havotsptuk yazıları” adlı kitabında alim milliyyətcə erməni olsa da, bir çox erməni saxtakarlıqlarını ifşa edir. Belə ki, müəllif kitabında Gəncəsər monastırının divar plitələri üzərindəki yazılardan söhbət açır. Araşdırma zamanı alimə aydın olub ki, XIX əsrdə Qarabağdakı monastırların və kilsələrin əvvəlki divar təsvirlərinin əksəriyyəti erməni alimləri tərəfindən saxtalaşdırılıb. Alim açıq şəkildə təsdiqləyib ki, XVIII əsrin əvvəlində Alban Apostol Kilsəsi erməni kilsəsindən asılı olmayıb. Yəni tamamilə müstəqil olub. Erməni alim qeyd edib ki, hətta monastırın xarici divarlarının daş plitələri üzərindəki yazılarda çox sayda türk sözləri var. Orbelin fikrincə, bu, Orta əsr alban irsində türk mədəniyyətinin əhəmiyyətli rolunu, qədim Qarabağın, o cümlədən bu monastırın tarixində türk elementinin rolunu göstərir. Hətta İosif Orbeli heç yerdə ”Ermənistan” və ya ”erməni” sözlərinə rast gəlmədiyini də vurğulayıb.

**Tarixçi, tədqiqatçı Elmar Həsənli ”Şərq”ə açıqlamasında vurğulayıb ki, ermənilərin Qarabağda Azərbaycan izlərini silmək məqsədilə dağıtdıqları tarixi-dini abidələrin sayları yüzlərlədir.** Ekspert bildirib ki, ermənilər tərəfindən dağıdılmış abidələri saymaqla bitməz: ”Hazırda ermənilər öz havadarları ilə birlikdə xristian abidələrinin qorunması ilə bağlı ”narahatlıq”larını ifadə edirlər. Lakin ermənilərin bu vəhşilikləri törətməsi, bizim isə Bakıda erməni kilsəsini bir abidə olaraq qorumağımız dünya mədəni irsinə necə yanaşmağımızın nəticəsidir. Dağlıq Qarabağ ərazisində xristian memarlığının yüksək səviyyədə olmasına dəlalət edən ən çox dini tikililər - monastırlar, kilsələr, bazilikalar, məbədlər XII-XIV əsrlər arasındakı dövrə təsadüf edir. Yeni kilsələr məhz bu dövrdə inşa edilib. Ümumiyyətlə, Qarabağ bölgəsində bir çox dini və tarixi abidələrimiz olub. Misal olaraq, Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Horadiz kəndində iki məscid, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri xüsusilə qeyd olunmalıdır. Bundan başqa Laçın rayonunda yerləşən Ağoğlan monastrı, Kəlbəcər rayonunda Xudavəng monastrı və s. adlarını çəkə bilərik. Bu günləri bu abidələrimizin və məscidlərimizin bir çoxu dağıdılıb və məhv edilib. Həmin tarixi yerlərimizin bərpası təbii ki, bu günlər mümkündür. İstər çar Rusiyası, istərsə də Sovet Rusiyası dövründə ermənilər həmin dini tarixi abidələri restavrasiya adı altında saxtalaşdırıblar. Tarixi mənbələr və faktlar əsasında həmin abidələri yenidən öz əvvəlki vəziyyətinə qaytarmaq mümkündür. Bu işə ilk növbədə peşəkar tarixçi və memarlar cəlb edilməlidir”.

E.Həsənli qeyd edib ki, Qarabağda yerləşən abidələri iki yerə bölmək olar: ”Birincisi, islamdan qabaq. İkincisi isə islam dövrü abidələri, yəni xristian və islam dini abidələri. Bizim bu gün problemimiz xristian dini abidələri ilə bağlıdır. Təbii ki, bunlar bizim dini miraslarımızdır. Biz bu mirası heç kimə verməməliyik. Bəzi dairələrə bu abidələrin tarixən kimə məxsusluğu yox, onun siyasi tərəfi maraqlıdır. Ona görə də bu məsələdə çox həssas olmalıyıq. Məsələn, daha çox siyasiləşəndə bu dini abidələri muzeyə çevirmək daha məqsədəuyğundur. Hesab edirəm ki, onlar daha çox muzey kimi istifadə edilməlidir. Qeyd edim ki, Qarabağda daha çox orta əsrlər dövrünə aid abidələr üstünlük təşkil edir. Daha çox üstünlük təşkil edənlər isə xristian dininə aid abidələrdir”.

***Tarixçi-alim əlavə edib ki, Qarabağda Alban memarlığını özündə əks etdirən IV-XVI əsrlərə aid bir neçə Alban kilsəsi də bizim dövrə qədər gəlib çatmışdır:*** ”Onlar arasında Laçın rayonunda yerləşən Ağoğlan monastrı, Kəlbəcər rayonunda Xudavəng monastrı, Xocavənd rayonunda Amaras monastrı, Ağdərə rayonunda Müqəddəs Yelisey məbəd kompleksini, Ağdərə rayonunda Gəncəsər monastrı və digərlərini göstərmək olar. İntibahın rəmzi 1216-1238-ci illərdə tikilmiş Gəncəsər monastırıdır. Monastr altı əsr ərzində - 1836-cı ilədək müstəqil Alban knyazlığının dini mərkəzi, son Alban katolikoslarının iqamətgahı olub. Memarlıq və inşa planına görə, o, Xudavəng monastırının kilsəsi formasındadır. Xocalı və Xocavənd ərazilərinə gəlincə, qeyd edim ki, həmin ərazilər tarixən bizim ərazilərdir. Təbii ki, Xocalı, Xocavənd və Xankəndində abidələrimiz məhv edilib və saxtalaşdırılıb. Çox təəssüf ki, dünya dövlətləri bu faktlara laqeydcəsinə yanaşır. Hesab edirəm ki, nə zaman ki, həmin ərazilərin idarəçiliyi tam olaraq Azərbaycan dövlətinin nəzarətinə keçəcək, bax o zaman həmin ərazilərdə yerləşən abidələrə tam nəzarət edə və qoruya biləcəyik”.

**Aynurə Pənahqızı**



# Evindən ayrılıb savaşa yollanıbsa, haqqı var

## Bütün döyüşçülərin hərbi biletinə müharibə iştirakçısı olduğu yazılmalıdır

**İkinci Qarabağ savaşının iştirakçılarının şikayətləri sosial şəbəkələrdə yayılır. Onların narazılıqlarından birini də jurnalist Arifə Əliyeva feybsuk səhifəsində işıqlandırıb.**

Həmkarımız şikayətçi döyüşçülərlə birgə fotosunu paylaşaraq bunları qeyd edib: ”Bu igidlərimiz Vətən müharibəsində könüllü iştirak edənlərdir. Bəziləri borc tapıb, Bakıya gəliblər. Bilirsinizmi nəyə görə? Onların hərbi biletlərinə ”Vətən Müharibəsində iştirak ediblər” yazmırlar. Ən ağır şəraitdə - Laçında, Kəlbəcərdə, qarın üstündə yatıblar. Yəni onların haqqını yeyirlər”.

**Mövzu ilə bağlı ”Şərq”ə danışan ”Qarabağ qaziləri” İctimai Birliyinin sədri Asəf Əliyev deyib ki, bütün savaşçılarımızın hərbi biletlərinə ”Müharibədə iştirak edib” sözü yazılmalıdır:** ”Lakin qazilərimiz də şikayətçidirlər, bizə müraciət edirlər. Onların da sənədlərində yanlışlıqlarla rastlaşırıq. Məsələn, bir ayağı kəsilib, həm də bədəninin müxtəlif nahiyələrində qəlpə yaraları var. Hospitalın verdiyi kağızda isə o biri yaralar göstərilməyib. İstər hərbi biletlərdə, istərsə də digər sənədlərdə çatışmazlıqlar çoxdur. Əlillik dərəcələrinin verilməsi ilə bağlı da şikayətlər gəlir. Müalicə aldıqları xəstəxanalarda ilkin sənədləri düzgün yazılmır. Hərbi biletə müharibə iştirakçısı yazılmayanlar, ola bilər arxa cəbhədə vuruşub, döyüş əməliyyatlarında iştirak etməyib. Amma evindən çıxıb, savaşa yollanıb, hərbi forma geyinib. Ona görə hamısının hərbi biletində qeyd olunmalıdır. Misal üçün, 90-cı illərdə prezidentin sərəncamında yazılmışdı ki, 3 gündən artıq savaş bölgəsində olanlar da müharibə iştirakçısı sayılır”.

**Samirə**

# Akif Nağı yeni iddia irəli sürdü

## Minalanmış ərazilərin xəritəsi rus sülhməramlılarında var

**“Çox güman ki, Ermənistan Ordusu Qarabağın minalanmış ərazilərini əks etdirən xəritələri Rusiya sülhməramlılarına verib”. Bu iddia ilə Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı deyib. QAT rəhbəri ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bəzi gizli mənbələrdən gələn məlumatlar və indiyə qədər heç bir rus hərbçisinin özlərinin nəzarət etdiyi bölgələrdə minaya düşməməsi bunu təsdiqləyir:**

“Ermənistan Ordusu qərəzli və məqsədyönlü şəkildə xəritələri bizə vermir. Mənfur ermənidən bundan başqa nə gözləmək olardı ki?! Erməni işğalından azad etdiyimiz ərazilərdə xeyli müddətdir təmizlənmə prosesi gedir. Bu müddətdə bir neçə hərbçimiz, mülki şəxsimiz minaya düşərək ya həyatını itirib, ya da ağır yaralanıb. Bütün müharibə zonalarında ən ağır proses məhz minalardan təmizlənmədir. Dünya praktikasına görə, bir-biri ilə savaşmış qatı düşmənçilik mövqeyində olan dövlətlər belə müharibənin sonunda minalanmış ərazilərlə bağlı xəritələri qeyd-şərtsiz təhvil veriblər. Əfsuslar olsun ki, qeyri-humanist addımlarla ad çıxarmış Ermənistan tərəfi heç bir beynəlxalq normaya

> “İndiyə qədər heç bir rus hərbçisinin özlərinin nəzarət etdiyi bölgələrdə minaya düşməməsi bunu təsdiqləyir”



əməl etmir. Qətiyyən inandırıcı deyil ki, torpaqlarımızın minalanması ilə bağlı düşmən ordusunun əlində heç bir plan-xəritə yoxdur. Əllərində nə varsa, dərhal bizə verməlidirlər. Əldə etdikdən sonra xəritələrin saxta olub-olmadığı da araşdırılmalıdır”.

**A.Nağının qənaətincə, rəsmi Bakı həm Ermənistan, həm də Rusiya rəhbərliyi qarşısında ciddi məsələ qaldırmalıdır:** ”Xəritələrin verilməsini israrla tələb etməliyik. Əgər rus sülhməramlıları bölgənin təhlükəsizliyi ilə bağlı məsuliyyəti öz üzərinə götürübsə, minalanmış ərazilərin təmizlənməsi prosesinə öz töhfəsini verməlidir. Moskva Yerevanı məcbur etməlidir. Ermənilər hər fürsətdə 62 ”əsir” məsələsini qabardırsa, Azərbaycan tərəfi də bu tələbin qarşısına minalanmış ərazilərin xəritələri ilə çıxmalıdır. Əgər Ermənistan Ordusu həqiqi xəritələri bizə təhvil verərsə, onların ”əsir” kimi təqdim etdikləri diversant məsələsini müzakirəyə çıxarmaq olar”.

**İsmayıl Qocayev**

# Rüstəm Muradov şərait yaratmalıdır

## İnsanlarımız yurd yerlərinə - Göyçəyə, Zəngəzura qayıtmaq istəyir






**"Azərbaycan xalqı Qələbədən sonra itirilən bütün tarixi torpaqlara yeni nəzərlərlə baxır. İrəvana, Göyçə mahalına, Zəngəzura qayıdış qısa vaxtda mümkün ola bilər".**

*Bu sözləri parlamentin dünənki plenar iclasında millət vəkili, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc deyib.* Milli Məclisin üzvü vurğulayıb ki, Prezident İlham Əliyevin 10 noyabrdan sonra itirilmiş torpaqlara yeni məqsədlər və milli hədəflər kimi yanaşması da bunu sübut edir: "Ölkə rəhbərinin ustad Ələsgərin 200 illik yubileyinin keçirilməsinə dair sərəncamında deyilir: - "Azərbaycanlıların əzəli yurdu Göyçə mahalında Ələsgərin qəbiristü abidəsi ucaldılmışdı. Həmin əzəmətli büst ermənilər tərəfindən dağıdılsa da, milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş o irs yaşamaqdadır". Həqiqətən də bir xalqın mədəni varlığının və mənəvi sərvətlərinin qorunub saxlanması qayıdışın 1-ci şərtidir. Bu yerdə xatırladaq ki, böyük Üzeyirin, Bülbülün büstləri də Ələsgər kimi öz yurdundan uzaq salınmışdı. Tunc heykəllər də bizimlə birgə yüz illərin döyüşünü aparıb qalib gəlir və öz mərtəbələrinə dönürlər. Halbuki Ermənistanın Azərbaycanda doğulan tarixi şəxsiyyətləri sovet generallarıdır və onların nailiyyətləri yalnız söydükləri Stalin məktəbinə məxsusdur. İndi 30 illik ayrılıqdan sonra çoxəsrlik tarixi irsin və milli yaddaşın daşıyıcıları olan minlərlə Göyçə sakini müdafiə nazirinə və Qarabağda sülhyaradıcı missiyaya rəhbərlik edən Rüstəm Muradova müraciət edib. Son 3 ayda azad olunan ərazilərin mədəni irsini, dini abidələrini qorumaq adı altında ölkəmizə münasibətini 180 dərəcə dəyişən UNESKO-dan fərqli olaraq, göyçəlilər doğulduqları yurdları yalnız insani duyğularla ziyarət etmək istəyirlər".

> "Əgər humanitar çözüm yolları axtarırlarsa, bizim vətəndaşlarımızın müraciətlərini də təmin etmək siyasi balans yaradardı"

**Z.Oruc xatırladıb ki, Rusiya hərbi qüvvələri mandatlarına uyğun olaraq, erməni keşişlərinin Xudavəngə-Kəlbəcər yurduna gəlişinə bələdçilik edirlər. Halbuki, ziyarətçilər içərisində rahib libası altında rütbəli zabitlərin olduguna şübhə yoxdur:** "Lakin Azərbaycan bundan narahat deyil. Rusiya hərbi kontingenti son 3 ayda bölgədə 1419 hektar ərazini, 443 km yolu, 1361 evi 24 min 453 partlayıcıdan təmizləyib. Təqdir olunacaq hadisədir. Bizim üçün müqəddəs olan torpaqlara ruzi-bərəkət deyil, minalar əkən "qədim xalq"ın nazirləri Ermənistandan Xankəndiyə qanunsuz və təhlükəli yollarla gəldikləri halda on minlərlə irəvanlı, göyçəli, zəngəzurlu qanuni və minasız yollarla öz tarixi yurdlarına baş çəkmək istəyirlər. Mən parlament üzvü kimi, Göyçə mahalına, sonra Abasqulu bəyin yurduna getmək istədiyimi rəsmən bəyan edirəm. Qoy, UNESKO öz nizamnaməsinə sadiq qalaraq, bizim və soydaşlarımızın da əcdadlarının irsinə dönüşünü təmin etsin! Yeri gəlmişkən, belə müraciətlərin sayı getdikcə artır. Onsuz da sərhədin o biri tərəfində də Rüstəm Muradovun həmkarları keşik çəkir. Əgər humanitar çözüm yolları axtarırlarsa, bizim vətəndaşlarımızın müraciətlərini də təmin etmək siyasi balans yaradardı. Ermənilər bizim qayıdacağımıza əmin olduqları üçün, özlərinin olmayan torpaqlara minalar basdırmağı rəva bilib. Bizimkilər isə Göyçəni, Zəngəzuru əzəli torpaqları bildiyi üçün minalamayıb və xoş niyyətlə qayıtmaq istəyir. İndi yüzminlərlə azərbaycanlının pasportunda doğulduqları yer qrafasında bir söz yazılıb - indiki Ermənistan!".

**İsmayıl**



## Arayış almağa 30 km yol gedirdilər

### Dəmirçi kəndinin üzünə gün doğdu, Sədərək rayonunun tabeliyinə verildi

**Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Dəmirçi kəndi Sədərək rayonunun tabeliyinə verilib. Məsələ Milli Məclisin dünənki iclasında müzakirəyə çıxarılıb.**

Müvafiq qanun layihəsində edilmiş dəyişikliyə əsasən, Şərur rayonunun inzibati ərazisindən dövlət mülkiyyətində olan 4 min 444 hektar torpaq sahəsi Sədərək rayonunun inzibati ərazisinə birləşdirilib. ***Qanun layihəsi haqqında danışan Regional komitənin üzvü Səftar Mehbaliyev deyib ki, Dəmirçi kəndi Şərur rayon mərkəzindən 15 kilometr uzaqda yerləşir.*** Bu kəndin sakinləri rayon mərkəzindən arayış almaq üçün 30 km yol qət etməli olur: "Bu, təkcə vaxt almır, eyni zamanda maliyyə itkisi deməkdir. Kənd faktiki olaraq Sədərək rayonuna yaxındır. Təklif edilir ki, bu kənd Sədərək rayon inzibati ərazisinə daxil edilsin".

***Akademik İsa Həbibbəyli də qanun layihəsini dəstəkləyib və bildirib ki, bu addım Sədərək rayonunun imkanlarını genişləndirəcək:*** "İdarəçilik baxımdan Şərur və Sədərək rayonlarında edilən bu dəyişiklik məqsədə müvafiqdir. Bu addımın atılması faydalı olacaq. Dəmirçi kəndinin əhalisi öz işlərini daha asan və rahat həyata keçirə biləcək. Sədərək və Dəmirçi çox yaxındır. Gələcəkdə düşmən əhalisinin yerləşdiyi, indi anklav vəziyyətdə olan Kərki kəndi və 2018-ci ildə azad edilən Günnüt kəndi də Sədərəkə yaxın yerləşir. Gələcəkdə bu məsələyə baxmaqla Sədərəyi mühüm strateji əhəmiyyətə malik olan rayona çevirmək olar". Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

**İsmayıl**

Son günlər yüksəliş rekordu qıran Bitkoin, xeyli ucuzlaşaraq 50 min dollarlıq psixoloji səddindən aşağı düşüb. Ən böyük kriptovalyuta birjası olan "Binance"da olan vəziyyətə görə, bitkoin 12,38 faiz ucuzlaşaraq 49,9 min ABŞ dollarınadək geriləyib.

# Bitkoin çox riskli yatırımdır

## Çünki onun arxasında duran məsələlər artıq təhlükəyə çevrilib

Həmçinin 20-dən artıq birjadakı orta göstəricini əsas götürən "Coin MarketCap"a görə, bitkoin 13,45 faiz ucuzlaşaraq 49,5 min dollardan satılıb. Hərrac əsnasında bitkoin hətta 47,6 min dollaradək ucuzlaşıb. Xatırladaq ki, bazar günü bitkoin rekord vuraraq 58.352,8 ABŞ dollarına çatıb.

**Bitkoin barədə danışan iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında vurğulayıb ki, o, ümumilikdə çox spekulyativ və həddindən artıq riskli bir aktivdir.** Ekspertin sözlərinə görə, məhz buna görə də onun qiymətinin aşağı düşməsi və yuxarı qalxması artıq heç kəsdə şübhə doğurmur: "Bitkoin sırf xəbər axını ilə bağlı və müxtəlif spekulyasiyalara açıq bir aktivdir. Xəbərin fonunda biz onun qiymətinin sərt yüksəlməsini və sərt enməsini də görürük. Yəni kəskin dalğalanmalar olur. Təbii ki, bu da bitkoini çox riskli bir aktiv halına gətirir. Əslində bu, ilk gündən belə idi. Çünki bitkoinin arxasında duran əsas məsələlər artıq təhlükəyə çevrilib".





> **"Bu sahə ilə məşğul olanlar daim xəbər axınlarını izləməli və gedişata görə də qərar verməlidirlər"**

*N.Cəfərli əlavə edib ki, onu dəyərli edən məsələlərdən biri anonimliyidir:* "Kifayət qədər anonimliyi gözləmək şərtilə bu ticarəti, yəni bitkoin ticarətini həyata keçirmək mümkün idi. Bu anonimlik artıq təhlükəyə çevrilir. Son günlər onun qiymətinin kəskin enməsinin şahidi olduq. Yəni bir gün və cəmi 24 saat ərzində 58-59 mindən dəyəri 47 minə qədər ucuzlaşdı. Bu da təbii ki, elə xəbər axını ilə bağlı idi. Çünki bir gün bundan öncə Amerika maliyyə naziri, keçmiş Federal Ehtiyat Sisteminin (FED) rəhbəri Janet Yellen çıxışında bitkoinlə bağlı həm spekulyativ, həm də təhlükəli bir aktiv olmasına işarə verdi. Bununla da, bir gün ərzində bitkoinin qiymətində kəskin ucuzlaşmalar baş verdi. Təbii ki, bitkoini bazarda qazanmaq da, itirmək də mümkündür".

***İqtisadçı-ekspert Azərbaycanda da bu sahə ilə məşğul olanların sayının kifayət qədər olduğunu qeyd edib:*** "Azərbaycanda bitkoinlə məşğul olanlar bir şeyi dəqiq bilməlidirlər ki, bu aktivin hansı zaman dəyər qazanacağı və hansı zaman kəskin ucuzlaşacağı onun arxasında duran hansısa bir gücdən və dəyərdən irəli gəlmir. Sırf xəbər axınlarına və spekulyativ məlumat axınlarına bağlı olacaq bir bazardır. Buna görə də bu sahə ilə məşğul olanlar daim bu xəbər axınlarını izləməli və gedişata görə də qərar verməlidirlər. Çünki bitkoin çox riskli yatırımdır".

**Aynurə Pənahqızı**



# Qarabağın ETİBARI...

## Cəsarəti, dəmir iradəsi onu Qubadlıya qədər apardı və sonunda şəhid oldu

**Etibar Nəcəfov cəsarəti və dəmir iradəsi sayəsində döyüş yolunu Qubadlıyadək davam etdirib. Şəhidlik zirvəsinə ucalan qəhrəmanımız ölümündən sonra beş medalla təltif olunub. Millət qəhrəmanını tanımalıdır.**

Nəcəfov Etibar Mehman oğlu 14 noyabr 1998-ci il tarixində Ağcabədi rayonunun Aran kəndində anadan olub. 2005-ci ildə Laçın rayon Aran kənd ümumi orta məktəbinin birinci sinfinə daxil olub və 2014-cü ildə doqquz illik məktəbi bitirdikdən sonra təhsilini Ağcabədi rayon Aran kənd 1 saylı tam orta məktəbində davam etdirib. Etibar Nəcəfov 2016-cı ildə orta məktəbi başa vurub. O, uşaq yaşlarından idmana xüsusi maraq göstərib. Hətta karate və kikboks idman növləri ilə yaxından məşğul olub və keçirilən yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 2017-ci il yanvar ayının 5-də müddətli hərbi xidmətə yola düşüb. Xidmətini öncə Gəncə şəhərində, daha sonra isə Gədəbəy rayonunda yerləşən N saylı hərbi hissədə davam etdirib. Xüsusi Təyinatlı Kəşfiyyat Bölmələrində təlimlər keçib və ön xətdə göstərdiyi xidmətlərinə görə fəxri fərmanla təltif edilib. 2018-ci il 2 iyul tarixində ordu sıralarından tərxis olunub. Etibar Nəcəfov hərbi xidmət zamanı, eyni zamanda, mülki həyatda öz nizam-intizamı ilə seçilənlər arasında olub. Öz nizamı ilə ətrafındakı insanların daim böyük hörmətini, rəğbətini və sevgisini qazanıb.

Qəhrəmanımızın əmisioğlu Əkbər Nəcəfov onunla olan xatirələrini "Şərq"ə bölüşüb. O qeyd edib ki, Etibarı tanıyanlar onun necə cəsarətli, mərd və qorxmaz olduğunu yaxşı bilirdi: "Əmim oğlu Etibar Nəcəfov 27 sentyabr 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı təxribatı nəticəsində ordumuzun əks-hücum əməliyyatlarından sonra biganə qalmır. O, ölkəmizin müdafiəsi naminə könüllü olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Laçın rayon bölməsinə bir neçə dəfə müraciət edir. Lakin bir neçə dəfə müraciət etməsinə baxmayaraq çağırılmır. Bir gün hərbi komissarlıqdan geri qayıtdıqdan bir neçə saat sonra ona zəng edilir və orduya çağırılır. Məhz elə 2020-ci il oktyabrın 1-də Etibar böyük qürurla döyüş bölgəsinə - Vətənin müdafiəsinə yollanır. Etibar həqiqi hərbi xidmətini o bölgələrdə keçdiyi və xüsusi təlimlər aldığı üçün həmin bölgələri yaxşı tanıyırdı. O, döyüşlərin qızğın getdiyi bir vaxtda müharibəyə qoşulur. Onun döyüş yoldaşları Etibarın qəhrəmancasına vuruşmasından, cəsarətindən, qorxmaz və dönməzliyindən ürək dolusu danışırdılar. Məhz cəsarəti və dəmir iradəsi onu Qubadlıya qədər aparıb. Etibarın döyüş yolu Cəbrayıl, Füzuli, Zəngilan, və Qubadlı uğrunda olub. O, böyük qəhrəmanlıqları və igidliyi ilə hər kəsin diqqətini çəkib".





"Atası hara gedəcəklərini soruşduqda isə Etibar "Allah qoysa qayıdanda deyərəm, heç bir narahatlıq yoxdur, torpaqlarımızı da tezliklə düşmən tapdağından azad edəcəyik" deyir"

**Ə.Nəcəfov qeyd edib ki, Etibar ilə sonuncu görüşləri oktyabrın 1-i hərbi komissarlıqda onu yola sa**landa olub: "Sentyabrın 30-da bir yerdə evlərində idik. Özü ilə xeyli söhbət etdik. O tək əmioğlu deyildi, həm də qardaşım idi. Sonuncu dəfə hərbi komissarlıqda onu yola salanda, görüşüb bir-birimizin əlini sıxaraq qucaqlaşdıq. Mənə dedi ki, əmioğlu, narahat olma, bu dəfə torpaqlarımızı düşmən işğalından azad edəcəyik. Etibar və Etibar kimi, öz canını Vətən uğrunda qəhrəmancasına fəda verən igid qəhrəmanlarımız sayəsində bu gün qürur hissi ilə deyə bilərik ki, doğma torpaqlarımız azaddır. Təbii ki, bütün gənclər kimi onun da arzuları çox idi. Subay idi. Ən böyük arzusu görə bilmədiyi doğma dədə-baba torpağına getmək və Laçını görmək idi. Ən əsası isə tanınmış idmançı olmaq və Azərbaycan bayrağını dünya arenasında dalğalandırmağı çox arzulayırdı. O, sonuncu dəfə atası Mehman Nəcəfov ilə telefonla danışıb. Atası ondan vəziyyəti və harada olmasını soruşduqda atasına Qubadlı istiqamətində olduğunu deyib. Atası hara gedəcəklərini soruşduqda isə Etibar "Allah qoysa qayıdanda deyərəm, heç bir narahatlıq yoxdur, torpaqlarımızı da tezliklə düşmən tapdağından azad edəcəyik" deyir. Son cümləsi isə "Anama deyin, narahat olmasın" olur. Oktyabrın 19-dan sonra ondan heç bir xəbər olmayıb. Məhz sonuncu danışığı da elə həmin gün olub. Noyabrın 25-də məlum olur ki, o Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalıb. Noyabrın 26-da isə dəfn olunub".

*Qeyd edək ki, Etibar Nəcəfov Ali Baş Komandan, Prezident İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" medalı, həmçinin, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib*.

**Aynurə Pənahqızı**

---



# "Tovuz hadisələrindən sonra könüllü kimi qeydiyyatdan keçdim"

## Qazi Ağacan Məmmədli: "Özgə torpağına göz dikənin gözünü ovurlar"

**Qələbə qurban tələb edir. Biz Vətən müharibəsi günlərində bunu bir daha görüb, yaşadıq. Yüzlərlə mərd oğlumuz sinəsini torpağa sipər etdi. Bəziləri şəhid oldu, bəziləri qazi. Amma hər biri qalib ordunun qalib əsgəri kimi adını tarixə yazdı. Əlbəttə, tarix qəhrəmanlarımızı, onların şücaətini heç bir zaman unutmayacaq.**

Belə igidlərdən biri də Ağacan Məmmədlidir. O, 1992-ci il noyabrın 27-sində Bakıda anadan olub. 214 saylı orta məktəbi bitirib. Azərbaycan Dövlət İqtisad Universitetinin Türk Dünyası İqtisad fakültəsində bakalavr, Türkiyə Edirnə şəhərində Trakya Universitetində Mühasibat uçotu və audit fakültəsində magistr təhsili alıb. Bir neçə il özəl sektorda çalışıb.

Hazırda isə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin Daxili audit şöbəsində şöbə müdiri vəzifəsində işləyib.

**Azərbaycanın qəhrəman oğlu keçdiyi döyüş yolu barədə təəssüratlarını "Şərq"lə bölüşdü.**

"Hər bir Azərbaycan övladı kimi, mən də həmişə torpaqlarımızın işğaldan azad ediləcəyi günü səbirsizliklə gözləmişəm. Çünki milliyyətçi məfkurəyə sahib hər kəs üçün torpaq namusdur, qeyrətdir. Torpaq heysiyyatı hər birimizin qəlbindədir. Dostlarımla həmişə söhbətlərimizin bir hissəsi mütləq bu barədə olurdu. Olub-bitənləri, hadisələri təhlil edirdik və "o tarix yazılanda biz də orada olmalıyıq"- deyə düşünürdük. Bizim olanı geri qaytarmalıyıq. Fikirləşirdim ki, torpaqları azad etmək hər bir ölkə vətəndaşı kimi mənim də vicdan borcumdur. Şükürlər olsun, biz vicdan borcumuzu, Vətən borcunu layiqincə yerinə yetirdik. Tovuz hadisələrindən sonra hərbi səfərbərlik idarəsində könüllü kimi qeydiyyatdan keçmişdim. Nəhayət, hamımızın gözlədiyi vaxt gəldi çatdı və mən də ordu sıralarına qoşuldum. Vətən müharibəsində Kəlbəcər istiqamətində gedən döyüşlərdə iştirak etmişəm. Döyüş zamanı hərbi vəzifəm top komandiri idi.



Relyefin və hava şəraitinin çətinliyi mənə və döyüş yoldaşlarıma müqəddəs vəzifəmizi yerinə yetirməkdə əngəl törətmədi. Hər birimiz məqsədimizi dərindən anlayıb torpaqlarımız uğrunda əlimizdən gələni etmişik. Bu müqəddəs amal döyüş zamanı aramızdakı mehribanlığı və bir-birimizə qayğını gücləndirmişdi. Hər birimizdə yüksək əhval-ruhiyyə var idi. Xalq və ordu birliyi qazanılan qələbədə ən böyük amil idi".

**Məmmədli, həmçinin bildirdi ki, Vətən savaşında iştirak etdiyinə görə qürurludur**: "Biz bu anları yaşamaq üçün xeyli vaxt gözlədik. Amma bizim torpaqlarımızın düşmən tapdağında olduğunu bir an belə olsun, unutmadıq. Bu yerdə bir misal çəkmək istəyirəm: ruslar 1905-ci ildə Yaponiya ilə döyüşdə məğlubiyyətə uğramışdı. 1945-ci ildə Sovet Ordusu Yaponiyanı məğlub edəndə Stalin demişdi ki, biz bu məğlubiyyətin əvəzini çıxmaq üçün 40 il gözləməli olduq. Necə deyərlər, nəsil dəyişsə də, insanların intiqam hissi ürəyində bu müddət ərzində məhv olmamışdı. Bizdə də belə oldu. Biz Qarabağı görməsək də, həmişə qəlbimizdə o əşqi yaşatdıq, böyütdük. 30 ildən bəri yaşadığımız həsrətə nəhayət, son qoyduq. Hesab edirəm ki, daha gözəl günlər qarşıdadır. Bu müharibə hər iki tərəfin gələcək müqəddəratını və taleyini müəyyənləşdirəcək. Bu dəfə biz millətimizin böyüklüyünü hərb meydanında gördük. Ermənilər





Qarabağ Azərbaycan olduğunu anladılar! Düşmən məğlubiyyətini başa düşməlidir. Onlar bilməlidir ki, özgə torpağına göz dikənin gözünü ovurlar. Biz bunu artıq etdik. Müzəffər ordumuzun sayəsində qazanılan qələbə münasibəti ilə millətimizi təbrik edirəm. Bu şərəfli tarixin yazılmasında mən də yer aldığıma görə qürurluyam. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!".

**Kənan Novruzov**

# Paşinyan "Rusiya kartı"nı oynayır

## "İrəvanda Kremlə qarşı meyillər güclənir"



İkinci Qarabağ müharibəsi xeyli müddətdir bitsə də "iz"ləri hələ də qalmaqdadır. Belə ki, biabırçı məğlubiyyətdən sonra düşmən ölkədəki yerli əhali baş nazir Nikol Paşinyana qarşı etirazlara başlayıb. Yəni Ermənistan sözün əsl mənasında "qaynayır". Bu "qaynar qazanda" kimin "bişəcəyi", kimin "çiy qalacağı" isə ciddi sualdır. Vəziyyəti onsuz da ağır olan Paşinyan isə dinc dayanmır, sərsəm iddialarla çıxış edir.

**Siyasi analitik Züriyə Qarayeva Ermənistandakı daxili vəziyyəti və düşmənin məkrli planlarını "Şərq"ə şərh etdi:** "Noyabrın 10-da imzalanan üçtərəfli Moskva bəyannaməsindən sonra Ermənistanda Paşinyanı devirmək cəhdləri oldu. Əsgər valideynlərinin narazılığı dalğasında hakimiyyəti ələ almaq istəyənlər Rusiya "kart"ından yararlanmağa çalışdılar.

Azərbaycan ordusunun bilavasitə köməyi ilə itkin düşən 1000-dən çox erməni əsgərinin cəsədi tapılaraq qarşı tərəfə verildi. Bu amil də Paşinyana qarşı olan narazı kütlənin xeyli azalmasına səbəb oldu. İndi isə hakimiyyət dəyişikliyi yalnız seçkilər yolu ilə həyata keçirilə bilər. İrəvanda anti- Rusiya meylləri artmaqdadır. Ermənistan parlamentinin sədri Ararat Mirzoyan bu günlərdə İranın bu ölkədəki səfiri Abbas Zohurini qəbul edib.

Təbii ki, bu görüş "səfirin xahişi" ilə baş tutub. Görüşdə diqqətçəkən bir məqam iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı, xüsusilə də Zəngəzur (Sünik) vilayətində birgə iqtisadi fəaliyyətin genişləndirilməsi ilə bağlı tərəflərin müzakirəsidir. Şübhəsiz, onların niyyəti Azərbaycan və Türkiyəni birləşdirən dəhliz üzərində İranın iqtisadi təsir mexanizmlərini gücləndirməkdir.

Görünür, Zəngəzurda İranın təsir imkanlarının genişlənməsi Ermənistanın da, İranın da maraqlarına uyğundur.

Çünki hər iki ölkə regionda Azərbaycan və Türkiyənin təsir imkanlarının genişlənməsindən narahatlıq keçirir. Haqqında söz açdığım nüansın Türkiyə-Azərbaycan biznes forumunun keçirildiyi və iki ölkə arasında 11 yeni sazişin imzalandığı günə təsadüf etdiyini nəzərə alsaq, İran səfirinin erməni spikerlə görüşünün daha çox mesaj xarakteri daşıdığını müəyyənləşdirə bilərik. Ermənistanda isə Rusiya əleyhinə təbliğat kampaniyası geniş vüsət alır. Son on ildə Ermənistanda anti- Rusiya ovqatının artması diqqətlərdən yayınmayıb. İkinci Qarabağ müharibəsindəki ağır məğlubiyyət bu prosesi bir neçə dəfə sürətləndirdi. Siyasi dairələr, Paşinyana müxalif şəxslər, hətta zaman-zaman Paşinyanın özü də məğlubiyyətin əsas səbəbkarlarından biri kimi Rusiyanı göstərirlər".

*Z.Qarayevanın fikrincə, qarşı tərəfdə müxtəlif cəbhələrdə mübarizə aparan qüvvələrin daha ehtiyatlı addımlar atması heç də təsadüfi deyil:* "Əslində Paşinyan anti-Rusiya kampaniyasına başlayaraq Qarabağdakı acı məğlubiyyətlərin səbəbkarını "tapıb". Xalq isə daha çox Kremli onlara dəstək olmamaqda günahlandırır. Hətta müharibə vaxtı və qismən də sonrakı dövrdə keçirilən mitinqlərdə bu fikirlər açıq şəkildə səslənirdi. Bu gün isə Ermənistanda hakimiyyətə gəlmək istəyən müxalifət də anti- Rusiya açıqlamalarını açıq şəkildə səsləndirir. Ermənistanın baş naziri vəzifəsinə namizəd Vazqen Manukyan İrəvanın Azadlıq meydanındakı çıxışında açıq şəkildə Rusiyanı ittiham edib. O, həmin ölkənin Ermənistana nəzarət etməsinin yolverilməz olduğunu bildirib. Manukyan kiminsə noyabrın 10-da imzalanan üçtərəfli bəyanatla razı olmadığını, eyni zamanda bu sazişi kiminsə ləğv edə bilməyəcəyini də söyləyib. Fikrimcə, Manukyanın öz fikrini yeni müharibəyə hazır olmadıqları ilə əsaslandırması, Azərbaycanın "Dəmir yumruğunun" təsirindəndir".

**Ekspert Ermənistandakı daxili vəziyyətə dair Moskvanın mövqeyindən də söz açdı:** "Absurd olan isə Ermənistandakı bütün yollara, həmçinin Zəngəzurdan keçən yollara heç bir dəmir yolu şəbəkəsinə və iqtisadi resurslara malik olmayan düşmənin nəzarət iddiasıdır.

Yeni namizədin açıqlamalarından görünür ki, onlar Rusiyadan asılılığı tamam qoparmaq istəyirlər. Bu gün Ermənistanda anti- Rusiya siyasətinin özünü büruzə verməsi bir günün məhsulu deyil.

Müharibə dövründə də, Paşinyan ilk hakimiyyətə gəldiyi zaman da, ondan əvvəlki dövrlərdə də Ermənistanda anti-Rusiya toxumları səpilmişdir.

Düşünürəm ki, Rusiya hakimiyyət strukturlarına, siyasi və hərbi dairələrə bu tendensiya yarandığı gündən bəllidir. Bu yaxınlarda Köçəryanın Moskva turnelərinin fiaskoya uğraması, İrəvandakı heç bir siyasi gücə Rusiyanın dəstək verməməsi elə bu səbəbdəndir.

Hesab edirəm ki, üçtərəfli Moskva sazişlərinin qarantı kimi, Qarabağda sülhməramlı kontingentlə atəşkəsin qoruyucusu kimi, geostrateji əhəmiyyətə malik şimal-cənub və "Turan qapısı" kommunikasiya dəhlizlərinin təşəbbüskarı kimi Rusiya öz hərbi-iqtisadi-siyasi həmlələrinin hədəfə çatacağı müddət ərzində Paşinyanın devrilməsini istəmir.

Zənnimcə, Azərbaycanın da qalib ölkə kimi geosiyasi proseslərdə diktə etməsi tam təbiidir".

**Kənan Novruzov**

# Putin ordusunun vəziyyətindən razıdır

## "Getdikcə daha çox uşaq çağırış xidmətini özləri üçün vacib və vətənləri üçün zəruri sayır"

Rusiya Prezidenti Vladimir Putin yerli xalqı "Veteran müdafiəçilər" günü münasibətilə təbrik edib.



**"Şərq" TASS-a istinadən xəbər verir ki, Putin çıxışı zamanı silahlı qüvvələrin döyüş səmərəliliyini vurğulayıb, vəzifələrini layiqincə yerinə yetirdikləri üçün onlara təşəkkür edib.**

"Rusiya donanmasının solmayan qəhrəmanlıqları sayəsində vətənpərvərlik ənənələri bu qədər güclüdür. Müasir dünya ən çətin çağırışlara cavab verməyi, səriştəli, qətiyyətli və təsirli davranmağa davamlı sayıqlıq və hazır olmağı tələb edir. Ordumuz və donanma bunu necə edəcəyini bilir. Döyüş səmərəliliyi, təhsili, müasir biliklərə və ən yeni silahlara sahib olmağımızla qürur duyuruq. Əziz yoldaşlar, bütün hərbi qulluqçulara, silahlı qüvvələrin mülki personalına hərbi borclarını layiqincə yerinə yetirmələri üçün təşəkkür edirəm"- deyə, dövlət başçısı bildirib.

*Putin, həmçinin silahlı qüvvələrin nüfuzunun güclənməsinin səbəblərindən birinin gənc nəslin hərbi ixtisaslara artan marağının olduğunu vurğulayıb.*

"Getdikcə daha çox uşaq çağırış xidmətini özləri üçün vacib və vətənləri üçün zəruri sayır. Bir çox çağırışçı orduda qalır, xidmət etməyə davam edir, hərbi məktəblərə gedir - ömür boyu Vətən müdafiəsini öz peşələri seçir."- deyə, o, fikirlərini yekunlaşdırıb.

**Kənan**

## Bayden koronavirus qurbanlarını unutmadı

### ABŞ-da matəm elan edilib



**ABŞ-ın yeni Prezidenti Co Bayden maraqlı təşəbbüslə çıxış edib.**

"Şərq" xəbər verir ki, "Rambler.ru"nun məlumatına görə, o, koronavirus qurbanlarının xatirəsinə ölkədə beş günlük matəm elan edib.

*Qeyd edək ki, ölkədə COVİD-19-dan ölənlərin sayının yarın milyona yaxınlaşdığı bildiririlir. Bu isə üç müharibədəki itkilərdən çoxdur.*

**Kənan**

## Baş nazir tapşırıq verdi

### Rusiya Səudiyyə Ərəbistanına yaxınlaşır



**Rusiya Baş naziri Mixail Mişustin Xarici İşlər Nazirliyinə və Müdafiə Nazirliyinə xüsusi tapşırıq verib.**

Bu barədə Rusiyanın "Rambler.ru" saytı xəbər tirajlayıb. Tapşırığa əsasən müvafiq nazirliklər hərbi əməkdaşlıq sahəsində Səudiyyə Ərəbistanı ilə danışıqlar aparmalı və hökumətlərarası müqavilə imzalanmalıdır.

*Qeyd edək ki, sənəd ötən gün rəsmi internet informasiya portalında yayımlanıb. Sənəd layihəsində xüsusən razılaşma çərçivəsində Rusiya ilə Səudiyyə Ərəbistanının hərbi sahədə qarşılıqlı maraq doğuran məsələlər barədə məlumat mübadiləsi aparacağı, terrorizm və piratçılığa qarşı mübarizədə əməkdaşlıq edəcəyi və ortaq sahələrdə qarşılıqlı əlaqələrin qurulacağı göstərilib.*

## Ukrayna Krımı unutmur

### Hava və dənizdən gələn hücumlara qarşı hərbi təlimlərə başlanılıb



**Ukrayna Silahlı Qüvvələrinin "Birgə Qüvvələr" əməliyyatının (Donbasdakı hərbi əməliyyatlar) komandiri general-leytenant Sergey Naev mart ayında Krımla həmsərhəd bölgədə təlimlər keçiriləcəyini bildirib.**

Bu barədə Rusiyanın "Rambler. ru" saytı informasiya verib. Məlumata görə, təlimlərin məqsədi hava və dənizdən gələn təhdidlərə cavab vermə qabiliyyətini artırmaq olacaq. "Ukrayna Silahlı Qüvvələrinin "Birgə Qüvvələrinin" cənub istiqamətində mövqe tutan bölmələrinin mart ayı üçün təlimləri planlaşdırılır.

Bölmələrimiz hər şeydən əvvəl havadan və dənizdən yarana biləcək təhlükəyə qarşı vaxtında və adekvat cavab vermə qabiliyyətlərini inkişaf etdirməlidirlər".

General-leytenant, həmçinin bildirib ki, paraşütçülər ərazinin müxtəlif yüksəkliklərində və ərazilərində havadan enmiş düşmən əsgərlərinin aşkarlanması və məhv edilməsi üçün tədbirlər hazırlayacaqlar.

Ehtiyat bölmələri bu zaman ərazilərə qarşı döyüş yürüşləri, həmçinin amfibiya hücumunun qarşısını almaqdan ötrü praktik tədbirlər görəcək.

**Kənan**

## İctimai və dövlət maraqlarının müdafiəsi



# Hibrid tədrisin tətbiqi vacibdir

*Elə etməliyik ki, təhsili pandemiyadan ağır zərbələrə məruz qalmış şəkildə çıxarmayaq*

Uşaqlar da məktəb üçün darıxmış. Heç təsəvvür etməzdik ki, səhər yatağından qalxmağa ərinən, hər cür bəhanə ilə məktəbdən yayınmağa çalışan, könülsüz, ayaqlarını çəkə-çəkə dərsə gedənlər bir gün "nə olardı məktəb açılardı, müəllimimizi görərdim, uşaqlarla söhbət edərdim"in dərdini çəkəcək. Amma oldu. Pandemiya uşaqları məktəbdən uzaq saldı. Tədris onlayn formaya keçdi. Təhsil Nazirliyi dərslərin əyani formada başlanmasının yoluxma sayından asılı olacağına dair açıqlamaları özünü doğrultdu.

Yoluxma və sağalma sayındakı müsbət dinamika dərslərin əyani formada bərpasına imkan yaratdı. Lakin hələlik mərhələli şəkildə. Belə bir qərarın verilməsində əsas hədəf şagird və müəllim kollektivinin sağlamlığının qorunmasıdır. Təhsil Azərbaycan dövlətinin əsas prioritetlərindən biri olsa da, insanların sağlamlığından üstün deyil və ola bilməz. Biz bu yanaşmanı

pandemiyanın ilk vaxtlarından görürük. Azərbaycan hökumətinin qəbul etdiyi qərarlar ilk növbədə vətəndaşların sağlamlığına yönəlib. Bununla yanaşı hökumət qəbul etdiyi qərarlarda ictimai maraqları da nəzərə alır, diqqətdən kənarda qoymur. Orta məktəblərin mərhələli şəkildə əyani tədrisə başlamasında da həm dövlət, həm də ictimai maraqlar təmin edilir. Təhsilsiz cəmiyyət savadsızlığa, mövhumata məhkumdur. Dövlətə isə Azərbaycan və dövlətçilik naminə savadlı, yüksək intellekt sahibi gənclər lazımdır.

### Şagird və valideynlərdə əminlik artır

Hazırda orta məktəblər və ali məktəblərdə tədris həm əyani, həm də onlayn formada keçirilir. Seçim valideynlərin, tələbələrin üzərindədir. Lakin bundan narazı qalanlar "hibrid tədris"in əleyhinədir. Və bu tədris formasının təhsili zəiflətdiyi qənaətindədirlər. Hibrid tədrisin mənfi, müsbət tərəflərini mütəxəssislərlə aydınlaşdıracağıq. Bəs hazırda orta məktəblərdə sanitar-epidemioloji vəziyyət nə yerdədir?

Orta məktəblərdə əyani tədris başlanandan Respublika İncəsənət Gimnaziyasında 8 müəllim və bir neçə şagirdin COVİD testi müsbət çıxıb. Bu səbəbdən məktəbdə əyani tədris prosesi müvəqqəti olaraq dayandırılıb. Məktəbin fəaliyyəti 14 günlük müddətinə təxirə salınıb və dərslərin distant formada tədris olunması qərara alınıb.

Qeyd edək ki, bundan əvvəl Nərimanov rayonundakı 82 nömrəli məktəb də eyni səbəbdən iki həftəlik bağlandı. Bakı Şəhəri üzrə Təhsil İdarəsindən bildirilib ki, 82 nömrəli tam orta məktəbin 1 nəfər I sinif şagirdinin, 1 nəfər ibtidai sinif və 1 nəfər ingilis dili müəlliminin COVID-19 testi pozitiv çıxıb.

Bakı şəhəri Nərimanov rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin qərarı əsasında məktəbdə əyani tədris prosesi müvəqqəti olaraq dayandırılıb.

Xatırladaq ki, Nazirlər Kabineti "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər barədə" qərarı var. Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2021-ci il 1 fevral tarixindən tədris və təlim-tərbiyə prosesinin əyani formada təşkili sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Təhsil Nazirliyinin qərarına əsasən təhsil pillələri və səviyyələri üzrə mərhələli şəkildə təmin ediləcək. Müəyyən edilib ki, Təhsil Nazirliyi tərəfindən bu Qərarın 1-ci hissəsinə uyğun olaraq tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edildiyi halda, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri də tabeliklərində olan təhsil müəssisələrinə münasibətdə eyni qərarlar qəbul edirlər.

Xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun tənzimlənir.

Bakı şəhər Təhsil İdarəsinin açıqlamasında bildirilir ki, təhsil müəssisələrində koronavirus infeksiyasına qarşı şagirdlərin və məktəbin pedaqoji heyətinin daha etibarlı qorunması üçün sanitar-epidemioloji vəziyyətdən irəli gələn tələblərə ciddi əməl olunur və müvafiq qaydaların icrası ilə bağlı mütəmadi monitorinqlər aparılır. BŞTİ rəhbərliyi və İdarənin əməkdaşları da gündəlik məktəblərə gedir, tədrisin təşkili vəziyyəti ilə yerində tanış olurlar. Bütün bunlar şagird və valideynlərdə əminlik hissini artırır, ənənəvi tədrisə və müəllimlə canlı ünsiyyətə əsaslanan əyani dərs prosesinə maraq göstərənlərin faiz artımına təkan verir.

### Yuxarı siniflər üçün də əyani dərslərə doğru gedilir

Qeyd edək ki, təhsil nazirinin əmrinə əsasən fevralın 1-dən orta məktəblərin 1-4 sinifləri üzrə, həmçinin Bakı, Sumqayıt, Abşeronda ibtidai təhsil, məktəbəhazırlıq, icma əsaslı qrupların fəaliyyəti mərhələli şəkildə, iri şəhərlərdə tədris həftədə 3 dəfə olmaqla, digər rayonlarda isə həftədə 4 və 5 dəfə olmaqla bərpa olunub.

Fevralın 8-dən etibarənsə Azərbaycanın şəhər və rayonlarında yerləşən, layihə tutumu və şagird sıxlığı təhsilalanlar arasında fiziki (sosial) məsafəni (ən azı 1.5 metr) gözləməyə imkan verən ümumi təhsil müəssisələrində tədris ümumi orta təhsil səviyyəsində (I-IX siniflərdə) həftədə 5 dəfə olmaqla keçirilir. Fevralın 15-dən isə Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda yerləşən ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq mərhələsində tədris həftədə 2 dəfə, ibtidai təhsil səviyyəsində (I-IV siniflərdə) həftədə 3 dəfə, ümumi orta təhsil səviyyəsində (V-IX siniflərdə) həftədə 2 dəfə olmaqla bərpa olunub. Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsil şöbəsinin müdiri Vəfa Yaqublu isə bildirib ki, epidemioloji vəziyyət hazırda stabildir. İbtidai və orta siniflərdə əyani tədris davam edir. X-XI siniflərlə bağlı vaxt müəyyən olunmayıb, amma mərhələ-mərhələ buna doğru da gedilir.

Təhsil Nazirliyi hibrid tədris üçün dərs cədvəli nümunəsi də hazırlayıb. Bu nümunələr müxtəlif situasiyaları əhatə edir. Əyani tədrisin həftədə iki dəfə olduğu və sinifdə şagird sayı sosial məsafəni qorumağa imkan verdiyi hallar, sinif qruplara bölünərsə, əyani tədris həftədə üç dəfə olarsa və sinifdə şagird sayı sosial məsafəni qorumağa imkan verəcəyi hallar və sair. Qeyd edilir ki, bu nümunədən istifadə etməklə müəllim məktəbin xüsusiyyətlərinə uyğun dərs cədvəli hazırlaya bilər. Sinif yarımqruplara bölündüyü halda uyğunlaşdırılmış tədris planında distant dərslər üçün nəzərdə tutulmuş dərslərin bir hissəsini əyani dərslərə vermək lazımdır. Dərs cədvəlinizi həm də teledərslərin cədvəlinə uyğunlaşdırmaq tövsiyə olunur.

### "Sosial aktivliyin təmini mütləq lazımdır"

**Fəlsəfə doktoru, təhsil məsələləri üzrə ekspert Rafiq İsmayılov "Şərq"ə açıqlamasında qeyd etdi ki, hibrid tədris formasının çətinlikləri olsa da, hazırkı durumda onun tətbiqi vacibdir:**

- Müasir tədris metodikasının elə formaları var ki, onları sinif şəraitində, əyani tətbiq etmək mümkündür. Xüsusən də ibtidai siniflərdə. Məsələn, qruplara tapşırıqlar vermək, şagirdlərin tapşırıqları necə yerinə yetirdiyinə nəzarət etmək, onlarla ünsiyyət qurmaq və onları dinləmək, həmçinin yazı işlərini - imla, esse - icra etdirmək üçün mütləq əyani dərslər olmalıdır. Tədrisin elə formaları var ki, onları onlayn formatda tətbiq etmək olmur. Deyək ki, ali məktəblərdə keçilməsi zəruri olan praktik işlər, təcrübələr, canlı dərslər Bunun üçün mütləq əyani dərslər lazımdır. Ona görə də Nazirlər Kabineti tədrisin həm əyani, həm də onlayn formada keçilməsi qərarını verib. Bəzən deyirlər, hibrid tədris nəyimizə lazımdı? Açıqlayım. Hibrid tədris formasının tətbiqində əsas məqsəd şagirdlərin, tələbələrin, müəllimlərin, valideynlərin - hamının sağlamlığının mümkün qədər qorunmasıdır. Sinifdə sıxlıq olmamalıdır, sosial məsafə gözlənilməlidir, gigiyenik qaydalara əməl edilməli, dezinfeksiya işləri mütəmadi aparılmalıdır. İkinci məqsəd uşaqların sosial aktivliyinin təmin edilməsidir. Mənim nəvələrim uzun müddət məktəbin həsrətini çəkdilər, deyirdilər, kaş məktəb açılsın, sinif yoldaşlarımızı görək. Uşaqların eyni məkanda, qapalı şəraitdə uzun müddət qalması onlarda psixoloji fəsadlar yarada bilər. Virtual məktəb uşaqları yorur. Həm fiziki, həm də psixoloji. Çünki hərəkətsizdirlər. Uşaq sosiallaşmalı, ünsiyyətdə olmalı, sosial aktivliyini itirməməlidir. Bunun ən yaxşı yolu da məktəbə getməkdir. Dərslərin hissə-hissə bərpası, bəzi dərslərin evdə, bəzisinin məktəbdə keçilməsində də əsas məqsəd uşaqların passivliyini önləmək, onları aktivləşdirməkdir. İndiki şəraitdə bundan uyğun metod tapmaq çətindir. Onlayn dərslərin də çatışmazlıqları olur. Bir də görürsən, onlayn dərs "qarğa bazarı"na dönüb. Ağız deyəni qulaq eşitmir. Müəllim dərsi düzgün yönləndirə bilmir. Amma ümumilikdə götürsək, ötən bir ilə yaxın müddətdə müəllimlər onlayn tədrisə alışdılar, işləməyin yollarını, üsullarını tapdılar. Yenə də baxır tədris olunan fənnə, yaxud tədris olunan mövzuya. Elə mövzular var ki, onları ümumi auditoriyaya müraciətlə tədris etmək daha effektlidir. Bu zaman onlayn tədrisə üstünlük vermək olar. Amma hansı mövzu əyanilik tələb edirsə, əlbəttə, onun keçilməsində tədrisin əyani formasına müraciət edilməlidir. Müəllimlər bunları özləri müəyyənləşdirməlidir. Elə etməlidirlər ki, təhsili pandemiyadan ağır zərbələrə məruz qalmış şəkildə çıxarmayaq. Çünki bunun ağırlığı dövlətin üzərinə düşəcək.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Deputat danışdı, “ev yıxdı”



## Səttar Möhbalıyev insanların çörəyinə bais olur

Azərbaycan restoranlarında iş rejiminin iki hissəyə bölünməsi ölkədə 400 minə yaxın yeni iş yerinin yaranmasına səbəb ola bilər.
Bunu Milli Məclisin deputatı Səttar Möhbalıyev parlamentin bu gün keçirilən iclasında deyib.

O, qeyd edib ki, Azərbaycanda restoranlarda, kafelərdə iş rejimi səhər saat 10-dan axşam saat 12-yə qədər davam edir və orada eyni adamlar çalışır.

S.Möhbalıyev vurğulayıb ki, iş rejimləri iki hissəyə bölünsə, yeni iş yerləri yarana bilər.

**Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Kazım Məmmədov ”Şərq”ə bildirdi ki, qeyd edilən təklif bu halda həmin restoranlarda çalışanların məvaciblərini azaldacaq:**

”Əminəm ki, təklif ölkə vətəndaşlarını düşünərək söylənilib. Fəqət, burda bir məsələ var. Restoran və kafelərdə çalışan şəxslərin iş rejimi iki hissəyə bölünsə, onların əməkhaqqı da iş saatlarına əsasən azalacaq. Bu da işçini ikinci işi axtarmağa vadar edir.

*”Restoran və kafelərdə çalışan şəxslərin iş rejimi iki hissəyə bölünsə, onların əməkhaqqı da iş saatlarına əsasən azalacaq”*

Buna görə də mən düşünürəm ki, ölkədə iş saatlarını bölmək hazırda işləyən şəxsləri öz çörəyindən edir, nəinki başqalarına yeni iş verir. ”Bu, ölkədə filan qədər yeni iş yerləri yaratdıq” sözündən başqa bir şey deyil.

Məlumdur, Azərbaycanda işsizlik səviyyəsi heç də statistikada göstərilən kimi deyil. İşsizlik səviyyəsi yüksəkdir, xəstəlik səbəbindən lap yüksək həddə çatıb.

Ölkədə yeni iş yerləri açılmalı, gənclər iqtisadi bölmələrdə müvafiq işlərə cəlb edilməlidir. Üstəlik indi pandemiya səbəbi ilə əksər iş yerləri bağlı qalıb, açıq müəssisələr isə işçiləri ixtisar edirlər”.

*K.Məmmədov, həmçinin, ölkə prezidentinin bu barədə fikirlərini də diqqətə çatdırdı:* ”Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev şəxsən vurğulayıb ki, insanlar ölkədə səkkiz saatdan çox işləməməlidirlər. Yəni hazırda ölkəmizdə səkkiz saatlıq iş rejimi qurulub.

Kafe və restoranlar, eləcə də digər müəssisələr bu prinsipə əməl etməli, fərdləri göstərilən saatdan çox işləməyə məcbur etməli deyillər”.

**Ağarza Elçinoğlu**

# Daha belə olacaq

## Validevnlərini itirmiş övladlığa götürülən uşaqlar pulsuz təhsil alacaqlar



**Nazirlər Kabineti ”Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında”, ”Magistratura təhsilinin məzmunu, təşkili və ”magistr” dərəcələrinin verilməsi Qaydaları”, ”Bakalavriat (əsas (baza ali) tibb təhsili) təhsilinin məzmunu və təşkili Qaydaları” və ”Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları”nda dəyişiklik edib.**

”Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları”na əsasən, Azərbaycan Respublikasının vətəndaşları üçün rezidentura təhsili dövlət sifarişi və ya ödənişli əsaslarla həyata keçirilir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər rezidenturaya ödənişli əsaslarla qəbul olunurlar. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər dövlət, bələdiyyə və özəl ali təhsil müəssisələrində rezidenturada ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqı dövlət büdcəsinin vəsaiti hesabına ödənilir. Dəyişikliyə əsasən, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar övladlığa götürüldükdə də bu hüququ saxlayacaqlar. Övladlığa götürülən valideynlərini itirmiş uşaqlar magistratura və bakalavrda da ödənişsiz təhsil alacaqlar.

**Aytac**



# Neftin gündəlik qiyməti 100 dollara da çata bilər

## Amma bunun nə şirkətə, nə də neftlə ticarət edən dövlətlərə əhəmiyyəti var

Yayda və ya bu ilin sonunadək neftin qiyməti bir barel üçün 80 dollara çata bilər. Növbəti iki il ərzində isə 100 dollar həddini aşacağı ehtimal edilir.

Bunu SOCAR Ticarət-in direktoru Xəyal Əhmədzadə deyib.

Onun sözlərinə görə, 2020-ci ildə yaranmış artıq neft ehiyatları yayadək tam bitəcək. X.Əhmədzadə bildirib ki, SOCAR böhran dövründə yaranmış 15 milyon barel həcmində neft ehtiyatını satıb.

Bundan başqa, o qeyd edib ki, poladın artmaqda olan qiyməti neft xidmətləri üzrə podratçılara boru tikmək, quyu və digər infrastrukturları yaratmaq daha çətin olacaq. Bu, tələbin əvvəlki səviyyəyə qayıtması təqdirində belə təklifin bərpasını ləngidəcək.

SOCAR nümayəndəsinin fikrincə, OPEK və müttəfiqlər yaxın zamanlarda hasilatın azaldılması üzrə kvotanı azaldacaq və neftin tam gücü ilə nəqlinə qayıdacaqlar. O əlavə edib ki, bu amil də kifayət etməyəcək: ”Səudiyyə Ərəbistanında və Texasda hasilatın artacağı təqdirdə belə, 12 ay sonra çatışmazlığın olması ehtimalı var. Bu da öz növbəsində neft qiymətlərinin artmasına gətirib çıxaracaq”.

**Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban isə ”Şərq”ə bildirib ki, hazırda günlük qiymətlərin elə də önəmi yoxdur, əsas aylıq, rüblük və illik qiymətlərdir:**

”Cari il üçün neftin orta qiyməti hələ ki, 51-53 dollar arasında qiymətləndirilir.

Lakin neftin qiyməti 100 dollara da çata bilər. Necə ki, bu gün Bakı vaxtı (dünən) ilə saat 4-də neftin qiyməti 66, 69 dollara çatdı. Ancaq indi 64,80 dollar ətrafında ticarət edilir.

Ümumiyyətlə, bu gün neftin hansısa bir qiymətə satılmasının nə şirkətə, nə də neftlə ticarət edən dövlətlərə əhəmiyyəti var. Əsas neftin aylıq, rüblük və illik qiymətidir.

Biz hələ yeni ilin ilk iki ayını başa vurmamışıq. Amma ilin ortasında qiymətlərin necə olacağı ilə bağlı dolğun təsəvvürlər yarada bilirik. 2021-ci ildə neftin qiymətləri 50, 55, yoxsa, 60 dollar həddində ili başa vuracaq”.

**Ağarza Elçinoğlu**

# İmtahan verəcəklər...

## Heç olmasa bu şənbə-bazar ictimai nəqliyyat işləməlidir




Ölkədə müəyyən sahələr üzrə tətbiq edilən məhdudiyyətlərdə qismən yumşalma hiss olunur. Amma əhalinin gündəmdən düşməyən nəqliyyat problemi olduğu kimi qalır. Ekspertlər də deyir ki, avtobuslarda müşahidə edilən sıxlıq virusun yayılması üçün münbit şərait yaradır.

Məlum olduğu kimi, magistratura səviyyəsinə qəbul imtahanı fevralın 28-də keçiriləcək. Magistratura səviyyəsinə qəbul imtahanının ikinci şansının isə iyun ayında keçirilməsi nəzərdə tutulur.

*Təhsil eksperti Kamran Əsədov ”Facebook” səhifəsində bu barədə paylaşım edib.* O bildirib ki, karantin səbəbindən şənbə və bazar günləri ictimai nəqliyyat işləmir. Bu səbəbdən imtahan verəcək şəxslərin keçiriləcək məkana çatmağı problem yaradacaq: ”19 mindən artıq bakalavr da sənəd verib, imtahanda iştirak edəcək. İndi bu qədər insan imtahana necə gedəcək? Tutalım getdi, telefonla imtahanda iştirak edə bilməz. Gərək telefonu saxlamağa özü ilə bir də əlavə şəxs aparsın. Taksi çıxış yolu deyil. Çünki adi şənbə və bazar günləri taksi tapmaq mümkün deyil. Çünki imtahanda telefonu saxlamaq üçün yer olmur. İnanıram ki, müvafiq qurum bu şənbə və bazar günləri ictimai nəqliyyatın işləməsi üçün müraciət edəcək. Mütləq şəkildə bu həftənin şənbə və bazar günləri ictimai nəqliyyat işləməlidir”.

**Mövzu ilə bağlı ”Şərq” olaraq nəqliyyat ekaperti Elməddin Muradlı ilə əlaqə saxlayıb. Ekspert deyib ki, həftə sonları ictimai nəqliyyata məhdudiyyət qoyulması Nazirlər Kabineti tərəfindən Operativ Qərargah vasitəsilə verilmiş qərardır. Bu qərarlar da əslində uzunmüddətli olmamalıdır:**

”Həftənin cümə günü ictimai nəqliyyatda insanlar ”bir-birinin qucağında” gedir, amma şənbə günü avtobuslar işləməsin deyə qadağa qoyuruq. Guya problemin qarşısını alırıq. Təklif edirəm ki, həftə sonları ictimai nəqliyyatın fəaliyyəti məhdudlaşdırılmasın. Doğrudur, avtobuslar tam dezinfeksiya olunmalıdır. Lakin bunu mərhələ-mərhələ etmək olar. Bütün sahələrdə fəaliyyət bərpa olunub. İcitmai nəqliyyata qadağa qoyulursa, paralel olaraq verilən hər hansı qərara adekvat deyil. Metro bağlıdır, taksilər günü-gündən qiyməti qaldırır. Operativ Qərargah bu məsələyə yenə baxmalıdır. Sanki Operativ Qərargah müvafiq qərarı verir, sonra yadından çıxarır. Bəzən elə təəssürat yaranır ki, nə isə unudulub. Bu dərəcə yanaşmaq doğru deyil.

Hər bir halda insanların durumunu dəyərləndirmək lazımdır. Milli Məclisdə də məsələyə toxunulub. Deməli ki, problem var, məsələnin həlli yolunu göstərmək lazımdır”.

**Aygün Tahirqızı**

# Limitin qoyulması doğru deyil



## *Dağ rayonlarında qazın qiyməti daha ucuz olmalıdır*

Millət vəkili Azər Badamov qaz limiti ilə bağlı təklif səsləndirib. Deputat parlamentin iclasında 2019-cu ilin may ayından Tarif Şurasının qərarı ilə əhaliyə güzəştli qiymətə satılan təbii qazın limitinin 2200 kub metr müəyyənləşdirildiyini xatırladıb.

Parlament üzvü Tarif Şurasına təklif edib ki, tətbiq olunmuş güzəştli qaz limiti dağlıq rayonlar üçün artırılsın: "Azəriqaz"ın məlumatına görə, ölkə əhalisinin 85 faizi tətbiq olunmuş limit həddini keçmir. Amma 15 faizi isə 2200 kub metrdən daha çox təbii qaz istifadə edir. Sual olunur, bu 15 faiz çox yandıran əhali qrupu hansılardır".

Millət vəkili qeyd edib ki, dağlıq rayonlarda ilin yeddi ayına yaxın havalar soyuq və şaxtalı keçir. Bu da həmin rayonların sakinlərinin evlərinin isidilməsi dövrünün digər regionlardan daha uzun olması deməkdir.

"Həm də dağlıq rayonlarda evlərin qızdırılması üçün hər saatına istifadə edilən qazın həcmi çoxdur. Amma güzəştli qaz limiti tətbiq olunanda bu amil nəzərə alınmayıb və bütün ölkəyə eyni yanaşma ortaya qoyulub".

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə bildirib ki, ölkəmizdə qazın və elektrik enerjisinin satışı doğru deyil:** "Ümumiyyətlə, bu sahədə limitin olması lazımsızdır. Limit tətbiq edilərkən rəsmi qurumlar tərəfindən belə bir iddialar səsləndirilmişdi ki, bu sistem elektrik enerjisi və qaza qənaətə xidmət edən məsələdir. Limiti ona görə tətbiq edirik ki, qaz sərfiyyatı boşa getməsin.

Dağ kəndləri və rayonlarda qazdan həm də qızınma kimi istifadə edirlər. Təəssüf ki, ucqar dağ kəndlərində hələ də qaz yoxdur. Harada qaz varsa, ondan eyni zamanda istilik mənbəyi kimi istifadə etməyə məcburdurlar. Kənd evlərində qızınmaya sərf edilən qazın həcmi daha çox olur. İstər-istəməz vətəndaşlar limiti keçməyə məcburdur. Bu da onların isrfaçılığından irəli gəlmir. Ona görə qaza limit qoyulmasının tamamilə əleyhinəyəm, bu, düzgün yanaşma deyil".

**N.Cəfərli vurğulayıb ki, qaz və elektrik enerjisinin ölkə daxilində müxtəlif tariflərlə satılması mümkündür: "Məsələn, Rusiyada qiymətlər bölgədən-bölgəyə dəyişir.** Qiymətlərin dəyişməsi nəticəsində də bazarda vahid yox, differansiallaşdırılmış qiymət mövcuddur. Azərbaycanda dağ rayonlarında, soyuq olan yerlərdə qazın qiyməti daha ucuz olmalıdır. Bu həm də ekoloji məsələdir. Meşələrdə ağacların qırılmasının qarşısı alınır, insanların komfortlu yaşaması üçün şərait yaranır. Ona görə də dağ kəndlərində ucuz qiymətlər təklif edilməlidir. Şəhərdə isə fərqli qiymətlər ola bilər. Bunun üçün çoxşaxəli və differensiallaşmış idarəetmə modeli var. Qəliz olsa da, bu sistemə keçmək daha məntiqlidir".

**Yeganə Bayramova**

## Dünya tendensiyasına uyğundur

### Qadınların pensiya yaşının artırılması normaldır



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Pensiya siyasəti və fərdi uçota nəzarət şöbəsinin məlumatına əsasən, bu il iyulun 1-də Azərbaycanda qadınların pensiya yaş həddi 6 ay yenidən artırılacaq.**

*Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Əkrəm Həsənov deyir ki, pensiya yaşının artırılması dünya tendensiyasına uyğundur və çox normal bir prosesdir:* "Azərbaycanda bu proses 2017-ci ildən başlayıb və qanunla tənzimlənir. Kişilər üçün bu tamamlanıb, qadınlar üçün isə həmin proses 2027-ci ildə başa çatacaq. Ölkəmizdə kişilər üçün nəzərdə tutulan pensiya yaşı qadınlara nisbətən daha çoxdur" .

Ekspert pensiya yaşının artırılmasının səbəblərini açıqlayıb: "Hazırda dünyanın bir çox ölkələrində pensiya yaşı artırılır. Bunun da bir neçə səbəbi var: bir tərəfdən insanların əmək aktivliyinin dövrü artıb; digər tərəfdən insanların həyat səviyyəsi yüksəldikcə ömrü uzanır və pensiya fondlarına artıq yük düşür.

Əslinə qalsa, pensiya yaşının artırılmasının başlıca səbəbi digər fondların yükünün ağırlaşmasıdır. Bu, həm də ona görə edilir ki, onlar da öz işlərini vaxtında yerinə yetirə bilsinlər".

**Aytac Ali**

# "Kütləyə çatmaq əsas hədəfimizdir"

## Kamran Muradov: "Güc birlikdə doğar, buna çalışırıq"

Son zamanlar respublikamızda ictimai və sosial yönümlü bir çox qurumlar yaradılıb. Bu qurumlar Azərbaycan gəncliyinin inkişafında və formalaşmasında müəyyən rol oynayır. Belə qurumlardan biri də, "Sosial İş və Sosial Media" təşkilatıdır. Bu təşkilat haqqında məlumat almaq üçün həmin təşkilatın təsisçilərindən biri olan Kamran Muradovla söhbətləşdik.

**- Kamran bəy, "Sosial media və Sosial iş" platformasını yaradarkən əsas məqsədiniz nə idi?**

- Əsas məqsədim gənclərin karyera inkişafına dəstək olmaq, cəmiyyətimizdə baş verən sosial problemlərə sosial işçilər olaraq yeni bir baxış ortaya qoymaq idi.

**- Təşkilatda davamlı olaraq hansı növ təlimlər keçirilir?**

- Əsasən psixoloji, şəxsi inkişaf, fəlsəfi, işarət dili və bədən dili ilə bağlı bağlı təlimlər təşkil olunur. Daha çox iştirakçıları və komandamızı düşündürən təlimlərə yönəlmişik.

**- Təşkilatınızda hansı şöbələr fəaliyyət göstərir. Və bu şöbələrin strateji iş planında hansı mövzulara üstünlük verilir?**

- Təşkilatımızda Gənclərlə iş, Operativ idarəetmə, Optimal inkişaf, İnformasiya Təminatı və Texniki Təminat, İnsan resursları və Nəzarət təftiş komitəsi şöbələri fəaliyyət göstərir. Biz strateji inkişafda məsuliyyətliliyin gənclər arasında yayılmasını və əsasən karyera inkişafında əsas olan komanda birliyinə yönələn mövzuları seçirik. İstər-istəməz gənclər artıq daha çox sosial problemlərin həllinə daha həssas yanaşır və əsası komanda birliyində şərt olan təvazökarlıq, birgə fəaliyyət prinsipinə əməl edirlər.

**- 7 ay ərzində toplanan auditoriyanız sizi qane edirmi?**

- Qismən bəli. Amma daha çox kütləyə çatmaq əsas məqsədimizdir. Çünki hədəfimiz və məqsədimizi daha çox gənclərə çatdırmaq, problemlərin həllinin yeni əsaslarla qurulmasıdır. Güc birlikdən doğar deyiblər. Bu güc üçün çalışırıq.

**- Bəs sizi digər təşkilatlardan fərqləndirən üstünlüklər nədir?**

- Biz əsasən gənclərimizə sərbəst fikir bildirmə və o fikirlərini layihə halına gətirib, test etmək imkanı veririk. Gənclərin davamlı olaraq sosial problemlərin həlli ilə bağlı fikirlərini alırıq. Layihə hazırlaya bilmirlərsə, öyrətmək üçün mütəxəssislərə yönəldirik. Gənclərə tapşırıqlar verib, vaxt təyin edərək məsuliyyətlilik hissini aşılayırıq. Tapşırıqlar ya mail, yada ki, whatsap qrupu vasitəsilə verirlər. Şəhid ailələrinə, qazilərə, ahıl və kimsəsiz vətəndaşlara qayğı və diqqətin gənclər arasında yayılmasını təmin edirik.



"Şəhid ailələrinə, qazilərə, ahıl və kimsəsiz vətəndaşlara qayğı və diqqətin gənclər arasında yayılmasını təmin edirik"

**- Gələcəkdə fəaliyyətinizi sosial şəbəkələrdən kənarda da davam etdirmək fikriniz varmı?**

- Bəli, var. Lakin indi onlayn platformalar cəmiyyətimizdə üstün mövqedədir və uzun müddət də belə davam edəcək deyə düşünürəm. Amma ənənəvi üsulla, yəni canlı görüşlərdə təşkil etməyə çalışacağıq.

**- Sizin platformanızda "Diqqətcil qonşu" layihəsinə start verilib. Bu dönəmin problemlərinə uyğun planlarınız varmı?**

- Bu layihəmiz əsasən ahıl, kimsəsiz, vətəndaşlara mənəvi cəhətdən qayğı və diqqət göstərilməsinə yönəlib. Təbii ki, mövcud pandemiya şəraiti ilə əlaqədar olaraq ev və mobil telefon, elektron poçt vasitəsilə əlaqə yaradır və yalnız mənəvi olaraq dəstək veririk. Lahiyəmiz yanvar ayında iki həftə öz işini uğurla yerinə yetirdi. Lakin layihəmiz yenidən fəaliyyətə başlayacaq və hətta ahıl, kimsəsiz insanlarla yanaşı, şəhid ailələrinə və qazilərə də yardımlar göstəriləcək.

**- Pandemiya hər birimizin həyatına ciddi təsir göstərib. Bu istiqamətdə hansı işlər görülür?**

- Bu istiqamətdə tibbi, psixoloji, sosial, ailə terapiyası sahələri üzrə maarifləndirmə işlərimiz davam edir. Vebinarlar təşkil edilir və xüsusilə pandemiya dönəminin uşaqların bu şəraitdə zərər görməsini minimuma endirmək üçün işlər görülür. Onlayn iş platformaların hüquqi bazası, keyfiyyətli distant təhsil sisteminin təşkili istiqamətində görülən işlərə dəstək proqramları hazırlanır.

**- "Qarabağ Azərbaycandır" kontekstində sizin platformanız hansı addımlar atıb?**

- Vətən müharibəsi dönəmində sosial mediada bütün platforma olaraq xüsusilə Twitter-də fəal olmuşuq və haqq səsimizi ucaltmaq üçün əlimizdən gələn dəstəyi təmin etməyə çalışmışıq. Hazırda da "Qarabağ Azərbaycandır" kontekstində "Vətənpərvərliyə Yeni Çağırışlar" adlı layihəmizi həyata keçirir və bu istiqamətdə konfranslar, təlimlər, tədbirlər təşkil edirik. Layihəmizin əsas məqsədi gənclər arasında vətənpərvərlik mövzusunda yeni layihələr təqdim etmələrini, bu layihələrin faydalılıq əmsalı barədə daha çox məlumatlandırma və yeni biliklər aşılamaqdır.

**- Gələcək fəaliyyətinizdə nə kimi planlarınız var?**

- Gələn ay mentor dəstəyi proqramımızın 3ayı tamam olur. Proqram üzrə ilk məzunları verəcəyik. Sonra yeni üzvlərin qəbulu, daha maraqlı, intellektual əhəmiyyətli təlimlər, yeni layihələrlə gənclərin və platformamıza diqqət ayıran iştirakçıların qarşısına gələcəyik.

**Banuçiçək Hüseynli**

# Heç ağlamadı...

## Vəsiyyətini edib bu dünyaya "əlvida" dedi





Fevral ayının 22-si Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Dillər əzbəri mahnıların ifaçısı, Xalq artisti Yalçın Rzazadə vəfat edib. Mərhumun oğlu Orxan Rzazadə atasının uzun müddətli xəstəlikdən sonra axşam saatlarında dünyasını dəyişdiyini söyləyib.

### Yalçın Rzazadə Limanda torpağa tapşırıldı

Xatırladaq ki, Yalçın Rzazadə 31 dekabr 1946-cı ildə Lənkəran rayonunda ziyalı ailəsində doğulub. Onun sənət yolu orta məktəbdə təhsil aldığı illərdən başlayır. İncəsənətə olan marağı Yalçın Rzazadəni Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət İnstitutuna - aktyorluq fakültəsinə gətirib çıxarır. 1968-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının vokal fakültəsinə daxil olur və 1973-cü ildə təhsilini qırmızı diplomla yekunlaşdırır. Hələ Konservatoriyanın tələbəsi olarkən, Azərbaycan Dövlət Teleradio Komitəsinə işə daxil olur və rejissor assistenti kimi əmək fəaliyyətinə başlayır. Teleradio Komitəsində çalışdığı illərdə Gülarə Əliyevanın "Dan ulduzu" ansamblına dəvət olunur. Yalçın Rzazadəni Azərbaycan tamaşaçısına tanıdan onun 60-cı illərinin sonunda musiqisi Cahangir Cahangirova aid "Durnalar" mahnısı olub. İllər ərzində Cahangir Cahangirov, Tofiq Quliyev, Emin Sabit oğlu, Oqtay Kazımi, Telman Hacıyev, Elza İbrahimova, Oqtay Rəcəbli, Ramiz Mirişli, Nəriman Məmmədov, Kamal, Eldar Mansurov, Firəngiz Babayeva kimi bəstəkarlar ona mahnılar yazıblar. Oxuduğu orkestrlərdən - Böyük Simfonik və Estrada-Simfonik Orkestrləri, Xalq Çalğı Alətləri Orkestri, Dan Ulduzu İnstrumental Ansamblı, Vaqif Mustafazadənin rəhbərliyi ilə "Sevil" vokal ansamblı, Əhsən Dadaşov adına "Xatirə" ansamblı, SSRİ-nin Yuri Silantyev və Aleksandr Mixaylovun rəhbərliyi ilə Estrada-Simfonik orkestrləri, Leninqradda Leybmanın rəhbərliyi ilə Caz Ansamblı onu müşayiət ediblər. Bu illərdə Yalçın Rzazadə "Od içində" filmində baş rola - Əmir bəy roluna dəvət alır. Bu filmdən sonra Yalçın Rzazadə yenidən filmlərə dəvət alsa da, çoxsaylı qastrol səfərləri, Azərbaycanın bölgələrində verdiyi konsertlər filmlərə çəkilməyə imkan vermir. "Dədə Qorqud", "Gün keçdi", "Qayınana","Bayquş qayıdanda", "Baladadaşın ilk məhəbbəti" kimi filmlərin musiqilərinə Yalçın Rzazadə öz ifası ilə ölməzlik bəxş edib. Ölməz sənətkar fevral ayının 23-də Lənkəran rayonu, Liman qəsəbəsində torpağa tapşırılıb.

**Xalq artistinin oğlu Orxan bəy danışır ki, Yalçın müəllimin vəziyyəti son günlər yaxşı olmayıb:** "Son üç gündə danışa bilmirdi. Dünən gücünü topladı və üç qardaşımız bir yerdə görəndə dedi ki, necə xoşbəxtəm. Onun sənət dostları zəng edib, maraqlanırdılar. Ədalət Şükürov tez-tez mənimlə əlaqə saxlayırdı. Atam ailəsi haqqında danışmağı sevməzdi. Efirə ailəsi ilə çıxmazdı. Ağlamaq şakəri də deyildi. Vəsiyyət kimi bizə deyirdi ki, məndən sonra göz yaşı axıtmayın". Deyirlər, son dəfə telefon danışığında dostu Kamran Aslanova belə söyləyib: "Qardaş, daha davam edə bilməyəcəm, yorulmuşam. Ağrılara dözə bilmirəm".

**Mədəniyyət Nazirliyi də mərhum Xalq artisti haqqında paylaşım edib:** "Musiqi mədəniyyətimizə böyük məhəbbət və sıx bağlılıqla səciyyələnən yaradıcılıq fəaliyyəti, ürəyəyatan səsi və orijinal ifa tərzi ilə musiqisevərlərin, xalqımızın məhəbbətini qazanan tanınmış müğənni Yalçın Rzazadəni unutmayacağıq".

**Şübhəsiz ki, elədir. Bundan sonra Yalçın Rzazadə mahnılarında yaşayacaq. Hər dəfə dinlədikcə kövrəlib, dərindən köks ötürərək onu yada salacağıq. Səsi də, nəğmələri də qəlbimizdən gəlib keçən adam, məkanınız cənət olsun! Ruhuna sevgi və sayğı ilə...**

**Samirə Ərəbova**



## "Hər gün ölüm xəbəri eşidirik"

### Nadir Qafarzadə: "Səbr edək və diləyək ki, hər şey yaxşı olsun"

**Müğənni Nadir Qafarzadə instaqramda paylaşdığı növbəti videoda günü-gündən artan ölüm xəbərlərindən, mövcud çətin vəziyyətdən danışıb.**

"Şərq" qəzeti xəbər verir ki, sənətçinin "Allah köməyimiz olsun" qeydi ilə yayımladığı video izləyicilərinin də marağına səbəb olub. Nadir deyib ki, bu gün Novruz bayramının ilk çərşənbəsi olsa da, o, xoş əhval-ruhiyyədə deyil: "Ötən il bizə elə acılar yaşadıldı ki, bayram, çərşənbə yada düşmür. Əvvəlcə panmdemiya, sonra Vətən müharibəsi, virusdan dünyasını dəyişənlər, şəhidlərimiz oldu. Demək olar hər gün ölüm xəbəri eşidirik. Bilmirəm, sizi çərşənbə münasibətilə təbrik edimmi? Şəxsən o ab-havada deyiləm. Səbr edək və diləyək ki, hər şey yaxşı olsun. Vəfat edənlərə Allah rəhmət eləsin, şəhidlərimizin məzarı nurla dolsun. Onların valideynlərinə də səbr diləyirəm".

**Samirə Ərəbova**

## Əhalinin dollara tələbatı onaylıq maksimuma çatıb

**Bu ilin yanvar ayında Azərbaycandakı banklar tərəfindən əhaliyə satılan nağd ABŞ dolları kütləsinin həcmi 325,402 mln. ABŞ dolları təşkil edib. Bu göstərici 2020-ci ilin dekabr ayı ilə müqayisədə 36% artıb.**

"APA-Economics"in Azərbaycan Mərkəzi Bankının dərc etdiyi göstəricilər əsasında apardığı hesablamalarına görə, 2020-ci ilin yanvar ayı ilə müqayisədə dollar alışı 47,8% artıb. Bundan başqa, cari ilin yanvar ayında ölkə əhalisinin banklara satdığı nağd dollar kütləsinin ümumi həcmi 67,729 mln. dollar təşkil edib ki, bu da aylıq 30,6%, illik müqayisədə isə 47,6% azalıb.

*Xatırladaq ki, cari ilin yanvar ayında əhalinin dollara tələbatı 2020-ci ilin martından bəri ən yüksək həddə çatıb.*

# Sosial layihələr işləsə, belə olmaz

## "Çoxlu sayda vətəndaş borc tapıb, kredit götürüb rüşvət verərək saxta əlillik alır"

Tanınmış jurnalist Jalə Mütəllimova feysbuk hesabında gözdən əlil vətəndaşa qarşı haqsızlıq barədə paylaşım edib. Onun sözlərinə görə, Cahid Beşirov adlı gözdən əlil şəxsə sentyabr ayına ekspertiza təyin ediblər ki, pensiya ala bisin: "Təbii ki, o çağacan bu yazıq adam pensiyasını ala bilməyəcək. Necə yaşamalıdır? Sonra da deyirlər vətəndaşın məmurları linçinə yol verməк olmaz. Bu ac, kor bədbəxt vətəndaşa bunu necə qadağan edək? Yalandan hesabat verirlər ki, iş sistemləşdirmişik.

Ay elektron xidmət ordan gəldi, nə burdan getdi. A kişi, sisteminiz sistem olsaydı, əlillərin sayı, kateqoriyası, dəyişməz əlillik tipləri haqda elektron kartatekanız, məlumat bazanız olardı. Və sənədin müddəti bitəndə, dəyişməz əlillik tipi olan pensiyaçı haqda avtomatik sistemdən məktub göndərilərdi aidiyyəti ünvana. İki gözündən də əlilə demək olmaz ki, gəl görüm təzə gözün bitib, ya yox? Ayıbdı, günahdı, a kişi. Qanunda boşluq var? Olar, istisna eləmirəm. Necə ki, şəxsi biznes maraqlarından qanunlara söz, bənd, cümlə əlavə etdirirsiniz eyy, ay sağ ol, bax, bu dəyişməz əlillik dərəcəsi olanlara da onu edin. Yazıqdır bu insanlar. Bu qədər qarğışa, söyüşə dağ əriyərdi, siz əvəlallah şeytan ordusu kimi, dimdik dayanıbsınız. Heç sözüm yoxdur".

**Baş verənləri "Şərq"ə şərh edən iqtisadçı Nazim Bəydəmirli bildirib ki, ölkəmizdəki tibbi komissiyaları sovet dövründəki təlimatlarla çalışırlar.**



### "Aldıqları müavinəti də maaş kimi görürlər"

Ekspert qeyd edib ki, müxtəlif səbəblərdən əlil olan vətəndaşlarımızın müəyyən hissəsi sonradan sağlamlığını bərpa edə bilərlər: "İllər boyu bəzi məmurların maraqları təmin olunub, çoxlu sayda şəxs saxta yolla əlillik dərəcəsi qazanıb. Burada Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini qınamaq da düzgün deyil. Onlar saxta əlilliklə mübarizə aparırlar. Lakin bəzən haqsızlıqlar ola bilir. Gözü görməyən şəxsin yenidən gözü bərpa oluna bilməz. Hesab edirəm ki, dövlət vəsaitlərinə qənaət baxımında saxta əlillik müavinəti alanlar araşdırılıb, müəyyən olunmalıdır".

*N.Bəydəmirli vurğulayıb ki, bəzən sağlam insanlar müxtəlif yollarla saxta əlillik dərəcəsi əldə edirlər:* "Müxtəlif həbslər olsa da, bu sahədə korrupsiya davam edir. Fikrimcə, vətəndaşların qanunsuz yollarla saxta əlillik vəsaiti alma səbəbləri aradan qaldırılmalıdır. Qanunu pozan məmur müxtəlif yollarla insanlara əlillik verib rüşvət alır. Rayon yerlərində bu işlərə kənd icmaları nəzarət etməlidir. Həqiqətən də əlil olan şəxslərə müavinət verilməlidir".

**İqtisadçının sözlərinə görə, əlil olan şəxslər illərlə müvafiq qurumlarda "sürünürlər":** "İnsanları saxta əlillik dərəcəsinə sürükləyən obyektiv səbəblər aradan qaldırılmalıdır. Vətəndaşlar niyə saxta müavinət arxasınca gedib rüşvət verirlər? Deməli, dövlətin sosial layihələri işləmir. Ölkədə özünüməşğulluq proqramı tətbiq edilməlidir. Çoxlu sayda vətəndaş borc tapıb, kredit götürüb rüşvət verərək saxta əlillik alır. Aldıqları müavinəti də maaş kimi görürlər. Maarifləndirmə yolu ilə bu problemləri aradan qaldırmaq lazımdır".

**Yeganə Bayramova**

# Pul üçün hamilə xanımını qayalıqdan atdı



## *Hakan Aysalın cinayətinin üstü turistin çəkdiyi video ilə aşkarlanıb*

Türkiyənin Muğla şəhərinin Fethiyyə qəsəbəsində 7 aylıq hamilə həyat yoldaşı Səmra Aysalı sığortadan pul almaq üçün qayalıqlardan aşağı atan Hakan Aysal həbs olunub.

Hakan Aysalın Səmra Aysalı həmin əraziyə zorla apardığını düşünən bir turistin olaydan öncə çəkdiyi video aşkarlanıb. Turistin "Ya adam qadını qayalıqlardan itələyəcək, ya da qadın adamı" deyərək reaksiya verib. Mobil telefonla hadisəni görüntüləyən şəxsin xanımın qardaşı Naim Yolcuyu televizorda görüb, videonu ona göndərdiyi öyrənilib.

Məlum olay 2018-ci ildə törədilib: "Tətil üçün İzmirə, ordan da Muğlaya gedən 7 aylıq hamilə S.Aysal və həyat yoldaşı H.Aysal istirahətin son günündə Muğlanın Fethiyə qəsəbəsinə, "Kələbəklər vadisi"nə yollanıblar. Burada qayalıqlardan yıxılaraq vəfat edən S.Aysalın ölümünün şübhəli olduğunu düşünən ailə olayın araşdırılması üçün məhkəməyə müraciət edib. Fəthiyyə "Cümhuriyyət Savcılığı" tərəfindən aparılan istintaq istiqamətində H.Aysalın ölən həyat yoldaşı S.Aysal adına hissə-hissə 119 min TL kredit götürdüyü və olaydan qısa müddət əvvəl xanımına 400 min TL dəyərində fərdi qəza sığortası düzəltdirdiyi ortaya çıxıb, məhkəmə H.Aysal haqqında həbs qərarı qəbul edib. H.Aysal 11 fevralda yarğılanmağa başlayıb.

Məhkəmədə "qəsdən öldürmə", "planlı öldürmə" və "hamilə olduğu bilinən qadını öldürmə" cinayətləri ilə ittiham olunan H.Aysal bunları inkar edib. Məhkəmə 6 aprel 2021-ci il tarixinə qədər təxirə salınıb.

Dünyasını dəyişən S.Aysalın qardaşı N.Yolcu deyib ki, bu olay mediaya çıxdıqdan sonra bir çox insan sosial şəbəkə platformalarından rəylər yazır: "Hadisə anında orda olanlar var imiş.

Şahidlik üçün bizimlə əlaqə saxlayanlar oldu. Məlumatları da paylaşdılar. Olayı görən başqa şəxslər də var. Sonra Hakanın ev kirayə götürdüyü və başqa şəxslərin mənzilə girdiyi öyrəniləndə evdən qovulduğu yazılıb. Bu rəyi yazan şəxslə əlaqə saxlaya bilmədik. Hadisə ilə bağlı foto, ya da videosu olanlar varsa, bizə göndərmələrini xahiş edirik".

N.Yolcu qatil olduğu düşünülən H.Aysal xanımın ölümündən sonra 1 ay müxtəlif məkanlarda istirahət etdiyi və bu durumdan şübhələndiyini söyləyib. N.Yolcu onun sığortadan aldığı pulla ən gözəl turistik yerləri gəzdiyi, otellərdə qaldığını bildirib: "2 ildir ki, ədalətin bərpa olunmasını gözləyirik".

**Samirə Ərəbova**



## Köpəklər niyə mavi rəngə boyanıb?

### Alimlər bunun səbəbini kimyəvi maddə ilə izah ediblər

**2015-ci ildə iflasa uğrayan bir kimyəvi fabrikin yerində saxlanılan mis sulfat yerli köpəkləri mavi rəngə boyayıb.**

"Şərq" "Reuters"ə istinadən bildirir ki, qəribə hadisə Dzerjinsk qəsəbəsi və ətrafında, Moskvadan təxminən 242 kilometr şərqdə, vaxtilə çox istifadə edilən "Prussiya mavisi"nin əsas tərkib hissəsi olan, bir vaxtlar olduqca zəhərli hidrosiyan turşusu istehsal edən tərk edilmiş "Dzerzhinskoye Orgsteklo" kimya zavodunun yaxınlığında meydana gəlib.

Mütəxəssislər heyvan balalarının orqanları ilə rənglərinin niyə mavi olduğunu izah etməyə kömək edə biləcəyinə inanırlar.

"Zoozashchita" baytarlıq xəstəxanasının baş həkimi Dmitri Karelkin mavi çalarların səbəbini kimyəvi maddə ilə izah edib. İtləri tədqiq edən mütəxəssislər həmin maddələrin itlərə rəng dəyişikliyindən başqa heç bir təsir göstərmədiyini bildiriblər.

**Aygün**



## *Harvard professorundan iddia:*
## *"Yadplanetlilər bizi ziyarət etdilər"*

*(Əvvəli səh: 16-da)*

**Bundan əlavə, Harvardda astronomiya professoru olan Avi Loeb son yazdığı kitabında həqiqətən də, həmin obyektin kosmik gəmi olduğunu irəli sürüb.**

Bəs bu necə mümkün ola bilər? Niyə əksər elm adamları bu iddia ilə razılaşmırlar? Tədqiqatçılar onu "Südyolundan" digər planet sistemlərindən atılan təxminən 100 milyon kometa olduğunu və onun hər il olduğu kimi günəş sistemindən keçdiyini təxmin edirlər. Beləliklə, "Oumuamua"nın onlardan biri ola biləcəyi məntiqlidir. Alimlər iddia edirlər ki, bundan biri də keçən il görülüb və "Borisov" adlandırılıb. Alimlərin fikrincə, bu, həqiqətən o qədər də qeyri-adi hadisə deyil. Bu obyekti maraqlı edən cəhətlərdən biri sadəcə onun sürətlə hərəkət etməsidir və onun "qara siluet" olaraq görülməsidir. Digər tərəfdən professor Avi Loeb "Oumuamuanı" israrlı şəkildə yelkəndəki bir yad gəmi kimi xarakterizə edir. İddiası ilə müəyyən qüvvələrə və astronomik hadisələrə söykənən Loeb təbii ki, haqlı və ya səhv ola bilər. Lakin bu iddia hazırda təsdiqlənmir. Bu səbəbdən elmi ictimaiyyət ikiyə ayrılıb.

**Aynurə Pənahqızı**

# Saçınızı kəpəkdən qurtarmağın təbii yolu var

## Limon suyu ilə masaj effekt verir



Gözəl və baxımlı bir görünüş əldə etmək üçün sağlam saçlara sahib olmaq çox vacibdir. Saç baxımı ilə maraqlanan hər kəsin bir müddət kəpəklə problem yaşadığı bəllidir. Bərpaedici şampunları, qulluq kremləri, saç maskaları həmişə kəpək üçün həll ola bilməz. Kəpək o qədər geniş dəri problemidir ki, kosmetik şirkətlər bu gün də effektiv kəpək əleyhinə düsturlar hazırlamağa davam edirlər. Saçlarımızı "işğal edən" bu ağ kiçik hissəciklərdən qurtulmaq mümkün deyil.

*"Şərq" türk mediasına istinadən kəpəkdən təbii yollarla qurtulmağın sirlərini oxucularla paylaşmağı daha uyğun hesab edir.*

Kəpəkdən qurtulmaq üçün ilk addım kəpəyin dəri xəstəliyi olduğunu qəbul etməkdir. Kəpək saç dərimizdəki ölü dəri hüceyrələridir. Dərimiz davamlı olaraq özünü yeniləyən canlı bir quruluşdur. Dərinin altında yeni hüceyrələr meydana gəldikdə, dərinin səthindəki ölü hüceyrələr üzə çıxır. Bu ölü hüceyrələrin saç köklərinə yığılması nəticəsində kəpəklə qarşılaşırıq.

Hər iki nəfərdən biri kəpəkdən əziyyət çəksə də, kəpəyin kişilərdə daha çox olduğu müşahidə edilir.

Kəpək üçün effektiv olan ilk üsul, ümumiyyətlə, saç təmizliyinə diqqət etməkdir. Saçları mütəmadi olaraq yumaq və hərtərəfli yaxalamaq, kəpəklə mübarizənin açarıdır. Kəpəkdən xilas olmaq üçün saçımızın və saç dərimizin nəmini qorumaq da çox vacibdir.

Tez-tez jelelərdən istifadə edirikse, saç düzləndiriciləri, qıvrıcılar və qurutma fenləri ilə çox vaxt keçiririksə, saçlarımızın nəm itirməsi və quruması çox mümkündür. Kəpəklə mübarizə apararkən saç düzümünə kömək olan alətlərdən bir qədər az istifadə etsəniz daha yaxşı olar.

Hər kəsin mətbəxində olan limon da kəpəklə mübarizədə köməyimizə çata bilər. Limonun asidik təbiəti baş dərisinin PH dəyərini tarazlıqda saxlamağa kömək edir.

Saçları yumadan əvvəl saç köklərinə limon suyu ilə masaj kəpəklə mübarizədə effektiv ola bilər. Lakin bunu kəpəkdən qurtulana qədər hər gün təkrarlamaq lazımdır.

**Yeganə Bayramova**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 392

## Uçan taksilərin kütləvi istehsalına başlanır



**Uçan taksi və digər dronların hazırlanması ilə məşğul olan Çinin "EHang" şirkəti 2021-ci ilin ikinci rübündə "EH216" adlı ikinəfərlik uçan taksilər istehsal edən zavodunu istifadəyə vermək niyyətindədir.**

İctnews.az bildirir ki, "EHang" şirkətinin məlumatına görə, Quandun əyalətinin Yunfu şəhərində inşa edilən və sahəsi 24 min kvadrat metr olacaq zavodda ildə 600 "EH216" taksi istehsal ediləcəyi təxmin edilir, tələbat çox olduğu təqdirdə uçan taksi istehsalının həcmi artırıla bilər. Zavodun ərazisində, həmçinin tədqiqat mərkəzi və sınaq poliqonu tikiləcək.

İndi "EHang" şirkəti Quancjouda yerləşən mənzil-qərargahında sürücüsüz idarə olunan taksi və başqa dronlar istehsal edir. Yeni zavod istifadəyə verildikdən sonra şirkətin əsas ofisi öz diqqətini yeni məhsulların hazırlanmasına yönəldəcək.

## Xiaomi avtomobil istehsalına başlayacaq



**Smartfon, qulaqlıq, noutbuk, məişət texnikası kimi bir çox məhsulları istehsal edən Xiaomi yeni sektora girməyə hazırlaşır. Şirkət öz avtomobilini istehsal etmək istəyir.**

Ted.az bildirir ki, şirkətin bu addımı strateji qərar kimi qiymətləndirirlər. Eyni zamanda bu qərarın zamanla dəyişə biləcəyi vurğulanır.

İddialara görə, Xiaomi-nin yeni avtomobil layihəsi CEO Lei Jun-un rəhbərliyi altında həyata keçiriləcək və bununla Xiaomi Tesla-ya rəqib olacaq. Şirkət bu layihəni həyata keçirə bilsə, Apple Car ilə avtomobil sənayesinə yeni nəfəs gətirə biləcək.

## Hər uşağına görə 24 min avro pul ödəyir

### Qalip Öztürkün həyatı mediada səs-küyə səbəb olub



**Türkiyədə qaçaqmalçılıqla məşğul olan Qalip Öztürkün həyatı mediada səs-küyə səbəb olub.**

Etdiyi cinayətkarlığa görə ömürlük həbs cəzası alan Öztürkün rus həyat yoldaşı ekranlara çıxaraq yoldaşının sərbəst buraxılmasını tələb edib. Belə ki, 10 uşağa sahiblənən qadın uşaqlara baxmaqda çətinlik çəkir. Bununla yanaşı dayəsinə hər uşağa görə 24 min avro pul ödədiyini də açıqlayıb.

Qadının bu açıqlaması gündəm yaradıb. (unikal.org)

Hazırda Gürcüstanın Batumi şəhərində yaşayan qadın gələcəkdə maddi çətinliklər yaşayacağını dilə gətirib.

*Qeyd edək ki, 23 yaşlı rus qadın Öztürklə evliliyindən bir qız uşağı var. Yardımsevərliyi ilə tanınan Qalip daha 9 körpəni himayəsinə götürərək onlara sahiblənib.*

## Ronaldu pişiyini İspaniyaya istirahətə göndərib



**İtaliya "Yuventus"unun futbolçusu Kriştianu Ronaldunun Pepe adlı pişiyi evdən qaçıb və avtomobilin təkərləri altında qalıb.**

"Report"un məlumatına görə, bu barədə portuqaliyalı hücumçunun sevgilisi Corcina Rodriges "Instyle" jurnalına müsahibəsində deyib. Onun sözlərinə görə, hadisə Turində baş verib. C.Rodriges bildirib ki, pişik 1,5 ay müddətində baytar tərəfindən reanimasiyada müalicə edilib. Heyvan sağaldıqdan sonra isə cütlük onu bərpa prosesi üçün İspaniyaya istirahətə göndərib. Hazırda Pepeyə Rodrigesin bacısı İvana qulluq edir.



### Harvard professorundan iddia:

# "Yadplanetlilər bizi ziyarət etdilər"

**Zaman-zaman yadplanetlilərin dünyaya gəldiyini və bu barədə dünya mətbuatında yayılan xəbərlərin tez-tez şahidi oluruq.**





"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, bu dəfə belə bir iddia tanınmış professordan gəlib. Harvard astronomiya professoru Avi Loeb dünya ictimaiyyətini şoka salan məlumat yayıb. O iddia edib ki, yadplanetlilər 2017-ci ildə planeti ziyarət ediblər. Avi Loebin kosmik gəminin detalları barədə ətraflı məlumat verməsi həqiqətən də, hər kəsin diqqətini çəkib. Buna səbəb isə yadplanetlilərin ziyarət etdiklərinə dair konkret dəlilin bugünədək olmamasıdır. Daha maraqlı bir məqam isə iddia edildiyi 2017-ci ildə Günəş sistemində qeyri-adi bir cisim aşkar edilməsidir. Bu obyekt həm kiçik, həm də çox hündür olub. Bundan əlavə çox sürətlə hərəkətə malik olmuş və hətta o zaman Havaydakı üstün texnoloji cihazlar belə bu obyekti tuta bilməmişdir. Düzdür, o vaxtlarda "yadplanetlilər bizi ziyarət etdilər" kimi oxşar iddialar ortaya çıxmışdı. Həmin zaman bu naməlum obyektə "Oumuamua" adı verilmişdir. Astronomlar naməlum olan hər bir obyekti "yad bir vasitə" adlandırsalar da, bu fenomen gələcəkdə daha çox ortaya çıxdı. Bəzi elm adamları bu obyekti kosmik gəmi kimi xarakterizə etsələr də, bəziləri bunu belə zənn etmirdilər. Bu səbəbdən də onu sadəcəbir "kometa" kimi görürdülər.

*(Davamı səh: 15-də)*

## 3 saat işgəncə verdi

### Oğlan sevgilisini sonda kabellə boğub öldürdü



**Rusiyada dəhşətli qətl hadisəsi baş verib. 23 yaşlı Vera Pekhteleva keçmiş sevgilisi tərəfindən üç saat ərzində qapalı məkanda işgəncə görüb. Daha sonra 24 yaşlı cani gənc qızı ütünün kabeli ilə boğaraq öldürüb.**







Belə ki, gənc qız ölümündən əvvəl 7 dəfə polis şöbəsinə zəng edib. Lakin o, heç cür xəttə düşə bilməyib. Mənzildən gələn səs-küyə görə, qonşular polisə zəng edib. Hadisə yerinə cəlb olunan polis əməkdaşları gənc qızın cansız cəsədini aşkar ediblər. Onlar qısa zamanda 24 yaşlı qatili də saxlayıblar. (unikal.org)

İstintaq çərçivəsində əldə edilən dəlillərə görə, ayrılığa dözməyən Vladislav Kanyus sevgilisini evə apararaq ona işgəncə verib. Veranı döyən keçmiş sevgilisi cinayəti etiraf edib.



## 68 yaşlı İbrahim Tatlısəs eşq yaşayır

### Məşhur sənətçinin sevgilisi özündən 43 yaş kiçikdir

**2011-ci ildə başından vurularaq yaralanan, uzun müddətdir müalicə alan türkiyəli müğənni İbrahim Tatlısəs ekranlara geri dönüb. Altmış səkkiz yaşlı sənətçinin eşq yaşadığı iddia edilir.**

"Şərq"in məlumatına görə, onun sevgilisi olduğu söylənilən 25 yaşlı Gülcin Qaraqaya məşhur müğənni ilə Bodruma gedərkən çəkdiyi fotosunu sosial şəbəkədə paylaşıb. G.Qaraqaya "Biz yenə yollardayıq" yazaraq ürək "emojisi" ilə Tatlısəsi tağ edib. Tatlısəsin yeni sevgilisi özündən 43 yaş kiçikdir.

**Samirə**